**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Respublikası Təhsil İnstitutu**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUM)

**(V-XI SİNİFLƏR)**

**Bakı – 2024**

## MÜNDƏRİCAT

Azərbaycan tarixi fənninin məqsəd və vəzifələri................................................................3

Azərbaycan tarixi fənninin tədrisinə verilən tələblər..........................................................5

Azərbaycan tarixi təliminin məzmunu və ümumi təhsilin səviyyələri üzrə təlim nəticələr..11

Məzmun standartl...............................................................................................................15

Azərbaycan tarixi fənninin xarakterinə uyğun təlim strategiyaları....................................38

Fəndaxili və fənlərarası inteqrasiya.....................................................................................41

Azərbaycan tarixi fənnində şagird nailiyyətlərinin qiymətləndirilməsi vasitələri və meyarları...............................................................................................................................46

Azərbaycan tarixi fənninə dair təlim materiallarının planlaşdırılması üzrə metodiki tövsiyələr...............................................................................................................................53

## Azərbaycan Tarixi Fənninin Məqsəd Və Vəzifələri

Tarix uzaq və yaxın keçmişdə ölkəmizdə və dünyada baş vermiş mühüm hadisə, təzahür və prosesləri, insanların dünyagörüşü və həyat tərzindəki dəyişiklikləri, bu dəyişikliklərin səbəb və nəticələrini tarixi inkişafı ümumi qanunauyğunluq və konkretlikləri ilə əlaqədə öyrənən elmdir. Bu baxımdan min illər ərzində bəşəriyyətin əldə etdiyi təcrübəni öyrənən bir elm kimi Tarix fənninin orta ümumtəhsil məktəblərində tədrisi xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan tarixi fənninin orta ümumtəhsil məktəblərində tədrisi davamlı inkişaf edən, dərin və əhatəli biliyə, geniş dünyagörüşünə malik olan, faydalı bacarıq və vərdişlərə yiyələnmiş şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət və ənənələrinə, milli-mənəvi dəyərlərinə hörmətlə yanaşan, tarixi keçmişinə dərindən bələd olan, ailəsini, vətənini və millətini sevən, onun inkişafına çalışan sosial məsuliyyətli vətəndaş yetişdirməyə xidmət edir. Azərbaycan tarixi fənni şagirdlərdə aşağıdakı mühüm keyfiyyətlərin formalaşmasına xidmət edir:

- Milli mənəvi və ümumbəşəri dəyərlərə hörmət və onları qorumaq, vətənpərvərlik duyğularına malik olmaq,
- başqaları ilə ünsiyyət qurmaq və əməkdaşlıq etmək,
- problemlərin həlli yolları ilə bağlı fikir yürütmək, mülahizələrini əsaslandırmaq,
- hüquqlarını qorumaq və başqalarının hüquqlarına hörmətlə yanaşmaq,
- dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq
- Ləyaqətli vətəndaş mövqeyinə malik olmaq

Ümumtəhsil müəssisələrinin qarşısında duran ən mühüm vəzifələrdən biri də vətənpərvərlik dəyərinə malik şəxsiyyətlərin yetişdirilməsi olmuşdur. Bu baxımdan tarix dərslərinə həmişə xüsusi önəm verilmişdi. Əvvəllər hadisə və faktların şagirdlərə əzbərlədilməsinə əsaslanan ənənəvi Tarix tədrisi anlayışı üstünlük təşkil edirdi. XX yüzilliyin sonlarında dünyanın inkişaf etmiş ölkələrində bilikdən çox tarixi təfəkkür bacarıqlarının formalaşdırılmasına əsaslanan **yeni Tarix tədrisi anlayışı** ön plana çəkildi. Artıq tarixin tədrisində şagirdlərə ***sübutların qiymətləndirilməsi***, ***tənqidi düşünmə və problem həll etmə*** kimi bacarıqların aşılanması əsas məqsəd oldu.

Azərbaycan tarixi fənni üzrə təkmilləşdirilmiş kurikulumda şagirdlərə tarixi keçmiş haqqında məlumatları öyrətməklə yanaşı, onlarda bu fənnə məxsus müxtəlif kompetensiyalar və bacarıqlar formalaşdırmaq prioritet hesab edilir. Bu, şagirdlərə tarixin müxtəlif məsələlərinə fərqli prizmadan baxmağa imkan verməklə yanaşı, tarix dərslərinin daha başa düşülən, faydalı və maraqlı olmasına kömək edəcək.

Xronoloji və tematik anlayışları birləşdirən bir yanaşma ilə təkmilləşdirilən kurikulum, şagirdlərin fəal rol aldığı öyrənmə mühitinin və siniflər üzrə formalaşdırılacaq bacarıqların inkişaf etdirilməsini özündə ehtiva edir. Azərbaycan tarixi ilə bağlı hadisə, proses və təzahürlərin, mühüm tarixi şəxsiyyətlərin fəaliyyəti, mədəniyyətin inkişaf xüsusiyyətləri haqqında biliklərin mənimsənilməsi və *tarixi düşüncə bacarıqların* formalaşdırılması əsas məqsədlər hesab edilir.

Azərbaycan tarixi fənninin təhsil proqramı (kurikulumu) əvvəlki kurikulumda olan çatışmazlıqlar və ona dair tənqidlər nəzərə alınmaqla hazırlanmışdır. Yeni təhsil

proqramının (kurikulumun) məzmunu hazırlanarkən, Azərbaycan tarixinin ən mühüm məqamlarına, zəngin dövlətçilik ənənələrimizin inkişafına, görkəmli tarixi şəxsiyyətlərimizin fəaliyyətinə, mədəniyyətin müxtəlif sahələrində qazanılan nailiyyətlərə və dünya mədəniyyəti ilə qarşılıqlı əlaqələrə önəm verilmişdir. Şagirdlərdə tarixi hadisə, proses və təzahürləri məkan və zamanla əlaqələndirərək səbəb və nəticələri ilə birlikdə təhlil etmək bacarıqlarını formalaşdırmaq əsas məqsədlərdən biridir.

**Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı məqsədlərə nail olmağa istiqamətlənmişdir:**

1. Ən qədim zamanlardan müasir dövrə qədər Azərbaycan xalqının tarixi və mədəni irsini dərk etmək;
2. Azərbaycan tarixinin müxtəlif dövrlərini anlamaq üçün zəruri olan anlayışlar, terminlər, hadisələr, faktlar və qurumlar haqqında məlumat əldə etmək;
3. Azərbaycan tarixində mühüm rolu olan şəxsiyyətləri tanımaq, onların fəaliyyətini təhlil etmək və dəyərləndirmək;
4. Yaşadıqları cəmiyyətin, ölkənin və dünyanın bu günə necə gəldiyini dərk edərək, müasir dövrdə baş verən hadisələri şərh etməyi və gələcəyə dair proqnozlar verməyi ehtiva edən tarixi şüuru inkişaf etdirmək;
5. Azərbaycan tarixinin və mədəniyyətinin keçmişdən günümüzə qədər olan inkişaf xüsusiyyətlərini Dünya tarixi və mədəniyyəti kontekstində öyrənmək və anlamaq;
6. Milli və ümumbəşəri dəyərlərin şagirdlər tərəfindən mənimsənilməsinə, dərk edilməsinə və bunları davranışlarında əks etdirmələrinə nail olmaq;
7. Tarixi hadisə və ya proseslərin yerli, milli və beynəlxalq miqyaslara, həmçinin qarşılıqlı təsirlərə malik olması barədə məlumatlılığı artırmaq;
8. Tarixi hadisələrin baş verdiyi dövrün siyasi, sosial, mədəni və iqtisadi xüsusiyyətlərini əks etdirdiyini, onlara qiymət verərkən, həmin dövrün şərtlərinin nəzərə alınmasının zəruriliyini anlatmaq;
9. İlkin və ikinci dərəcəli mənbələrdən məlumatlar əldə etmək, sübutları müəyyənləşdirmək, onları şərh etmək, təhlil etmək və qiymətləndirmək, məlumatların düzgünlüyünü və etibarlılığını şübhə altına almaq və əsaslandırılmış nəticələr çıxarmaq kimi səriştə və bacarıqları inkişaf etdirmək;
10. Qloballaşan dünyada Azərbaycanın yeri və rolunu anlamaq, milli kimlik və mənsubiyyət, vətənpərvərlik duyğularını inkişaf etdirmək;
11. Milli birlik və həmrəyliyin təmin edilməsi və qorunub saxlanması ilə yanaşı, milli kimliyin formalaşmasında Azərbasycan tarixinin rolunu dərk edərək mədəni-tarixi irsi qoruyan şəxsiyyətlər yetişdirmək.

## Azərbaycan Tarixi Fənninin Tədrisinə Verilən Tələblər

XXI yüzillikdə tarixin tədrisində baş verən inkişaf və tarix elminə dair tədqiqatların nəticələrindən asılı olaraq fənnin məzmunu yenidən qurulur. Xüsusilə, İkinci Dünya müharibəsindən sonra tarixin nə üçün öyrədilməsi ilə bağlı artan müzakirələr və araşdırmalar bu fənnin tədrisi zamanı şagirdlərdə formalaşdırılmalı olan bacarıq və səriştələrin müəyyənləşdirilməsinə kömək etmişdir. Nəticədə orta məktəb səviyyəsində tarixin tədrisi yalnız müəyyən hadisələrin idrak səviyyəsində öyrədilməsi məqsədindən kənara çıxmış və tarixi biliklərin istehsalı prosesi və mexanizmlərini əhatə etməklə genişlənmişdir.

Tarix dərsləri vasitəsilə keçmişlə bağlı araşdırma prosesində şagirdlər real tarixi öyrənmə fəaliyyətləri ilə tanış edilməlidir. Onlar bilikləri yalnız yadda saxlamaq üçün deyil, onun əldə edilməsi və istifadə olunması prosesində iştirak edərək, yaradıcı şəkildə tətbiq etməlidirlər. Belə ki, tarixin tədrisi zamanı şagirdlər dərslikdən oxuduqlarını əzbərləmə mövqeyindən uzaqlaşdırılmalıdır. Bu isə tarixin tədrisində **tarixi düşünmə bacarıqlarını** formalaşdırmaqla mümkündür. Şagirdlərin tarixi bilikləri yaddaşda saxlayan deyil, onu istehsal və istifadə edən olması üçün onlar tarixi təfəkkür proseslərini öyrənməli, bacarıqlar qazanmalıdırlar. **Tarixi düşünmə bacarıqlarını** formalaşdırmaqda məqsəd şagirdlərə dərsliklərdəki məlumatları əzbərlətmək deyil, tarix fənninə məxsus təfəkkür bacarıqlarını aşılamaqdır. Tarixi hadisələri dərk etməklə onları şərh etmək, dəyərləndirmək və keçmişlə bu gün arasında əlaqələr qurmaq vacibdir. Şagirdlər tarixi hadisələrə, faktlara və məlumatlara tənqidi münasibət göstərməyi, tarixi düşüncə proseslərini öyrənib tətbiq etməlidirlər. Bu kontekstdə tarixi təfəkkür bacarıqları şagirdlərə mülahizə yürütməyə, hadisələr arasında səbəb-nəticə əlaqələri qurmağa, sosial-iqtisadi və siyasi sahələrdə, düşüncələrdə davamlılıq və dəyişiklikləri dərk etməyə imkan verir. Bu bəzi tarixi faktların davamlılıq xüsusiyyətlərini anlamağa və onları müasir hadisələrlə əlaqələndirməyə imkan verir.

**Tarixi düşünmə bacarıqları** adlanan öyrənmə nəticələri dünyanın inkişaf etmiş ölkələrinin kurikulumlarında mühüm yer tutur. Bu bacarıqlar əsasən altı sahəni əhatə edir:

**1) xronoloji təfəkkür;**

**2) tarixi anlama (dərketmə);**

**3) tarixi təhlil və şərh**

**4) tarixi problemin təhlili və qərarların qəbulu;**

**5) tarixi araşdırmalara əsaslanan tədqiqat;**

**6) tarixi empatiya;**

Bu bacarıqlar 6 ayrı kateqoriyada təqdim edilsə də, interaktivdir və bir-birini dəstəkləyir. İnkişaf etdirilən bu 6 bacarıq dəsti şagirdlərin əldə etməli olduğu nəticələrin ifadələridir. Tam orta təhsil üzrə Azərbaycan tarixi kursu 5-11-ci sinif təhsil proqramında (kurikulumunda) şagirdlərdə formalaşdırılması hədəf seçilən tarixi təfəkkür bacarıqları və dəyərlər aşağıdakılardır:




**1.Xronoloji düşüncə bacarığı**

Tarixin əsas komponentlərindən biri tarixi zamandır. Tarixi zaman cəmiyyətə dərindən təsir edən və mühim hadisələri təsvir etmək üçün istifadə edilən keçmiş zamanın bir hissəsidir. Xronologiya isə müəyyən tarixi zamanda hadisələrin baş vermə ardıcıllığına görə düzülməsidir. Tarixin əsası kimi də xarakterizə edilən xronoloji biliklərə əsaslanaraq, şagirdlər tarixi hadisələr arasında səbəb-nəticə əlaqəsi qurmaqla onları tam şəkildə öyrənirlər. Keçmiş, indi və gələcək zaman arasındakı fərqi müəyyən edərək şagirdlərin tarixi biliklərinin inkişafına sistemli töhfə verir.

**Xronoloji təfəkkür bacarıqlarına malik olan şagird:**

- Keçmiş, indi və gələcəyi fərqləndirir.
- Tarixi hadisələri miladdan (eramızdan) əvvəl və ya sonrakı fərqinə uyğun olaraq müəyyən edir.
- Milad, hicri və digər təqvimləri bir-birindən fərqləndirir, onlara aid hesablamalar aparır
- Tarixi hadisələri *era, minillik, yüzillik, yüzilliyin yarısı, rüb, onillik* və *il* kimi zaman anlayışları ilə ifadə edir.
- Tarixi mətndə zaman ardıcıllığını müəyyən edir.
- Tarixi məlumatları və mənbələri xronologiya əsasında şərh edir.
- Tarixi hadisələri xronoloji səhvə yol vermədən izah edir.
- Zaman oxunda təqdim olunan məlumatları şərh edir və müəyyən bir tarixi dövrə aid zaman oxu, cədvəl və s. materiallar hazırlayır.
- Tarixi davamlılığı və dəyişikliyi izah edir.

- Tarixin dövrlərə bölünməsinə yanaşmaları müqayisə edir və öz təkliflərini irəli sürür.

**2. Tarixi anlama (dərketmə)**

Tarixi anlama keçmişi dərindən və hərtərəfli dərk etməyə əsaslanır. Bu kontekstdə tarixi faktlar, anlayışlar, terminlər, konsepsiyalar və nəzəriyyələr arasındakı əlaqələri dərk etməyə əsaslanır. Tarixi anlama bacarıqlarında şagirdlər müxtəlif tarixi mənbələri araşdırarkən, hadisələrin baş verdiyi tarixi şəraiti nəzərə alaraq keçmişi günümüzün şərtləri və normaları ilə qiymətləndirməyin doğru olmadığını öyrənirlər. Tarixi anlama bacarığını mənimsəmiş şagirdlər mətndəki hadisələri vizuallaşdırmaqla (təsəvvür etməklə) oxu bacarıqlarını təkmilləşdirirlər; Mətni oxuma prosesində fərdlərin və sosial, dini və ya etnik qrupların niyyətlərini, meyllərini, dəyərlərini və ideyalarını nəzərə alır.

**Tarixi anlama bacarıqlarına malik olan şagird:**

- Tarixi sənədin və ya mətnin müəllifini, mənbəyini müəyyən edir, onun etbarlılığını və obyektivliyini dəyərləndirir.
- Tarixi mətnin məzmununu *kim, nə, necə, harada, nə üçün, nə vaxt* və *səbəb-nəticə* kimi əsas suallar çərçivəsində təhlil edir.
- Tarixi mətndəki faktları və şərhləri, subyektiv fikirləri, fərqli tarixi yanaşmaları fərqləndirir.
- Tarixi hadisəni izah edərkən müxtəlif mənbələrdə (*sənədlər, təsvirlər, mənbə şəxslər, tarixi yerlər və abidələr, sənət və ədəbi əsərlərdə*) təqdim olunan məlumatlara istinad edərək öz sözləri ilə izah edir.
- Tarixi hadisələrin baş verdiyi məkan haqqında məlumat əldə edərkən və ya biliklərini təkmilləşdirərkən tarixi xəritələrdəki məlumatlardan istifadə edir.
- Qrafik, cədvəl, diaqram və diaqramlarda təqdim olunan əlavə məlumatları təhlil edir.
- Vizual (fotoşəkillər, təqdimatlar, karikaturlar və memarlıq rəsmləri və s.), statistik məlumatlardan, ədəbi-bədii əsərlərdən (roman, şeir, pyes və s.) və musiqidən (xalq musiqisi, populyar və klassik musiqi) istifadə edir.

**3. Tarixi təhlil və şərh (səbəb-nəticə əlaqələrinin qurulması);**

Tarixçilər tarixi mənbələrə əsaslanaraq şərhlərini qururlar. Bu şərhlər eyni tarixi mənbələrə əsaslansa da, müxtəlif tarixçinin mövqeyi fərqli ola bilər. Bu həmin tarixçinin siyasi, sosial və s. maraqlarına görə dəyişə bilər. Tarixi təhlil və şərh bacarıqları tarixçilərin keçmişi niyə fərqli şərh etmələrinin səbəblərini başa düşməyi tələb edir. Bu bacarıqlara sahib olmaq üçün şagirdlər tarixi məlumatları və təqdim etdikləri sübutları hazırlayan müəlliflərə tənqidi yanaşmalıdırlar. Onlar araşdırılan mənbədə obyektiv və subyektiv yanaşmaları, habelə tarixi faktları və ümumiləşdirmələri fərqləndirməlidir. Mövzu ilə bağlı müəllimin izahı və dərsliklərdə yer alan məlumatlardan başqa müxtəlif tarixi mənbələrə müraciət edən şagirdlər fərqli şərhlər və yanaşmaların olduğunu başa düşəcəklər. Beləliklə, şagirdlər tarixçilərin öz mətnlərini yazarkən müxtəlif faktlardan istifadə etdiklərini və onları fərqli şərh etdiklərini anlayacaqlar.

**Tarixi təhlil və şərh bacarıqlarına malik olan şagird:**

- Keçmişdə yaşamış insanların fərqli baxışlarını, motivasiyalarını, inanclarını, maraqlarını müqayisə və şərh edir.
- Tarixi hadisələrin müxtəlif şərhlərinin olduğunu anlayır.
- Tarixi hadisələrin qavranılması, əhəmiyyəti və şərhlərinin yeni məlumatların əldə edilməsinə uyğun olaraq dəyişə bilməsini izah edir.
- Tarixi şəxsiyyətlərin xüsusiyyəti, siyasi, sosial-iqtisadi və təbii-coğrafi şəraitin əhəmiyyəti, düşüncələrin təsiri, insan maraqları və inancları, təsadüf və s. amilləri nəzərə alaraq səbəb-nəticə əlaqələrini təhlil edir.
- Tarixi davamlılıq və dəyişiklikləri dərk edərək, onunla bağlı problemləri müəyyən edir, dövrlər və regionlar arasında müqayisələr aparır.
- Tarixi mənbələrə və sübutlara əsaslanan məlumatlar və onlara əsaslanmadan irəli sürülən fikirləri fərqləndirir.
- Tarixi prosesdə müxtəlif anlayışlar, dövrlər, inkişaflar, qurumlar və təcrübələrdən nümunələr verir.
- Tarixi hadisə, proses və şəxsiyyətlərə dair müxtəlif şərhlər və fərqli baxışlar olduğunu anlayır, ziddiyyətləri ehtiva edən tarixi mətnlərin oxşar və fərqli cəhətlərini müqayisə edir.
- Keçmişin təsiri (qəbul edilmiş qərarların, tarixi hadisələrin yaratdığı imkanlar və məhdudiyyətlər) haqqında nəticə çıxarır.
- Fərqli düşüncələri, dəyərləri, tarixi şəxsiyyətləri, davranışları və qurumları müqayisə edir.
- Tarixi hadisə, proses və şəxsiyyətlər haqqında şərhlərin yeni məlumatlar əldə edildiyində dəyişə biləcəyini anlayır.

**4. Tarixi tədqiqat bacarığı**

Tarixin yazılması, tarixi hekayənin, essenin və s. qurulması prosesi mənbələrlə işləməyi tələb edir. Tarix elminin istifadə etdiyi metodoloji yanaşmalardan şagirdlər də istifadə edə bilərlər. Tarixi sorğuya əsaslanan araşdırma bacarığında şagirdlər detektiv həssaslığı ilə tarixi mənbələri sorğu-sual edərək (araşdıraraq) əldə etdikləri məlumatlardan istifadə edərək özlərinin müxtəlif tarixi mətnlərini (hekayələrini) yaradırlar. Bu yolla şagirdlər dərk edirlər ki, öyrənmək təkcə müəllimin izahı və dərslikdən ibarət deyil. Tarixi öyrənmək üçün dərslikdən başqa bir çox vəsait var. Əslində, tarixçi yanaşması ilə ilkin və ya ikinci dərəcəli mənbələrlə işləyə bilən şagirdlər dərsliklərdəki tarixi məlumatları şübhə altına alırlar. Dərsliklərə daxil edilməyən perspektivləri tanıyır, dərslikdə tamamilə və ya qismən diqqətdən kənarda qalan mövzunu dərindən araşdırır. Onlar həmçinin keçmişlə bağlı bir çox mühakimələrin "dəyişən və yenilənə bilən, mübahisəli" olduğunu dərk edir. Yeni mənbələrin kəşfi və mövcud mənbələrə yeni yanaşmalarla müxtəlif şərhlərin edilməsi nəticəsində tarixi məlumatların təkrar istehsal oluna biləcəyini dərk edir. Tənqidi yanaşmaya əsaslanan araşdırma keçmişlə bağlı problemlərlə bağlı qeyri-müəyyənliyi aradan qaldıra və əvvəllər irəli sürülən iddiaları təkzib edə bilər.

**Tarixi tədqiqat bacarıqlarına malik şagird:**

- Tarixi mənbələrə tənqidi yanaşır və onunla bağlı düşündürücü suallar verir.
- Müxtəlif tarixi mənbələrdən məlumatlar əldə edir.

- Tarixi məlumatların etibarlılığını, qərəzliliyini və obyektivliyini dəyərləndirir
- Tarixi mənbələrdən əldə edilən məlumatları təhlil edir.
- Tarixi mənbələrdən yeni məlumatlar əldə edir və onları sübutlarla əsaslandırır.
- Tarixi mənbələrə əsaslanaraq əldə etdiyi nəticələri təqdim edir.

**5. Tarixi problemlərin təhlili və qərar qəbul etmə bacarığı**

Keçmiş insanların verdiyi qərarlardan və onların nəticəsində baş verən hadisələrdən ibarətdir. Tarixi öyrənmək üçün keçmişdə yaşayan insanların problemlərindən, verdikləri qərarlardan, bu qərarlara təsir edən amillərdən və alınan qərarların nəticələrindən istifadə etmək olar. Bununla belə, tarixi sitatlar vasitəsilə aşkar edilən vəziyyət şəxsi mühakimələri, müxtəlif dilemmaları və ya çıxılmaz vəziyyətləri ehtiva edə bilər. Bu şəxsi mühakimələr, dilemmalar və ya çıxılmaz vəziyyətlər səbəbindən keçmişdə baş verən hadisələri şagirdlərin dərk etməsi üçün *“Bu hadisələri həll etmək üçün başqa cür nə edilə bilərdi?”* sualı verilə bilər. Sualın cavablandırılması yolu ilə şagirdlər tarixi hadisələri təhlil edir və keçmişdə yaşayan insanların düzgün və ya yanlış seçimlərinə təsir edən dəyər və inancları dəyərləndirirlər. Tarixi problemi öz tarixi kontekstində və hadisəni yaşamış insanların gözü ilə qiymətləndirir və dövrün şərtlərində nələr edilə biləcəyini düşünür. Keçmişdə yaşayan insanların kritik anlarda qarşılaşdıqları problemləri, dilemmaları və ziddiyyətləri anlayır. O, cari həll üsulu ilə alternativləri müəyyən edir, üstünlük verilməyən variantların nəticələri haqqında proqnozlar hazırlayır və onları üstünlük verilən həllərin nəticələri ilə müqayisə edərək qiymətləndirir.

**Tarixi problemlərin təhlili və qərar qəbul etmə bacarıqlarına malik olan şagird:**

- Müəyyən tarixi zamanda meydana gələn siyasi, social-iqtisadi problemlərin aid olduğu və sonrakı dövrə təsirlərini müəyyən edir.
- İnsanların maraqlarını, dəyərlərini və keçmiş məsələlərə və problemlərə baxışlarını təhlil edir.
- Mövcud siyasi, sosial-iqtisadi problemlərin tarixi əsaslarını müəyyən edir.
- Mövcud siyasi, sosial-iqtisadi problemlərin yaranmasına səbəb olan keçmiş və indiki səbəblər haqqında nəticə çıxarır.
- Tarixi problemin həlli üçün fəaliyyət planı hazırlayır, ona uyğun olaraq problemi müəyyənləşdirir, onu yaradan amilləri təhlil edir və müxtəlif seçimlər arasından inandırıcı həll yolunu təklif edir.
- Tarixi hadisə zamanı verilmiş qərarın icrasını, təsirlərini və alternativ variantları dəyərləndirir.

**6. Tarixi Empatiya**

Tarixi empatiya keçmişdə yaşayan insanların hərəkətlərini onların perspektivindən başa düşmək cəhdidir. Bu kontekstdə, tarixi empatiyada keçmişdə yaşayan insanların həyat və davranışlarını əhatə edən və yönləndirən siyasi, sosial-qtisadi, mədəni, intellektual və emosional amilləri anlamaqdır. Həmçinin bu barədə nəticə çıxararkən və ya qiymətləndirmə edərkən bunları nəzərə almaq vacibdir. Tarixi empatiya bacarığı ilə şagirdlər nəinki tarixi fərdlərin və ya qrupların özünəməxsus perspektivə malik olduğunu bilir, həm də bu

perspektivlərin müəyyən hadisələrə necə təsir etdiyini anlayırlar. Bu zaman şagirdlər emosianal sahə ilə yanaşı, tarixi mənbələrə əsaslanan dərin idrak prosesini işə salırlar. Keçmişdə insanların davranışlarının səbəblərini anlayır və izah edirlər. Tarixi empatiya qurarkən keçmişi bugünkü dəyərlərlə mühakimə etməməyi öyrənir və öyrənilən dövrdə hadisəyə təsir edən amillərin indiki zamandan fərqli olduğunu dərk edirlər.

**Tarixi empatiya bacarıqlarına malik olan şagird:**

- Keçmişdəki insanların duyğularını, düşüncələrini, məqsədlərini dövrün şərtlərinə uyğun olaraq müəyyən edir.
- Öyrəndiyi dövrün xüsusiyyətlərini öz hisslərindən, düşüncələrindən, mühakimələrindən təsirlənmədən qavrayır.
- Tarixi hadisələri dövrün prizmasından dəyərləndirir.
- Keçmiş hadisələri qiymətləndirərkən tarixi kontekstdən və xronologiyadan düzgün istifadə edir.
- Tarixi hadisələrlə bağlı əldə etdiyi məlumatları, dövrün şərtlərini nəzərə alaraq dəyərləndirir.

## DƏYƏRLƏR

Bizim dəyərlərimiz kurrikulumun perspektivini formalaşdıran prinsiplərin məcmusudur. Onun kökləri milli və bəşəri dəyərlərə  əsaslanır. Əsas insani xüsusiyyətlərimizi təşkil edən dəyərlər həyatımızın hər bir sahəsində və qarşılaşdığımız problemlərin həllində davranışımıza istiqamət verməlidir. Cəmiyyətin gələcəyi onun dəyərlərini mənimsəyən və bu dəyərləri sahib olduqları səriştələrlə nümayiş etdirən vətəndaşlardan asılıdır. Buna görə də, təhsil sisteminin əsas məqsədlərindən biri də  müvafiq əxlaqi qərarlar qəbul etmək və bunu öz davranışlarında nümayiş etdirmək bacarığını təmin etməkdir.  Təhsil sistemi təkcə akademik uğurları və müəyyən bilik, bacarıq və davranışları təmin edən struktur deyil. Milli və ümumbəşəri dəyərləri mənimsəmiş şəxsiyyətlər yetişdirmək təhsilin əsas vəzifəsidir. Tam orta təhsil üzrə Azərbaycan tarixi 5-11-ci sinif təhsil proqramında (kurikulumunda) şagirdlərdə formalaşdırılması hədəf seçilən dəyərlər aşağıdakılardır:

**vətənpərvərlik, ədalət, dostluq, dürüstlük, özünə nəzarət, səbir, hörmət, sevgi, məsuliyyət, yardımsevərlik, tolerantlıq.**

## Azərbaycan Tarixi Fənninin Məzmunu Və Ümumi Təhsilin Səviyyələri Üzrə Təlim Nəticələri

Ümumi orta təhsil səviyyəsinin sonunda Azərbaycan tarixi fənni üzrə ümumi təlim nəticələri:

1. Azərbaycan tarixində anlayışların, terminlərin, faktların habelə hadisə, proses və təzahürlərin mahiyyətini anlayır və izah edir;
2. Azərbaycanın dünya sivilizasiyasının, mədəniyyətinin, ümumbəşəri dəyərlərin formalaşmasında və inkişafında əhəmiyyəti ilə bağlı fikir bildirir;
3. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir;
4. Azərbaycan tarixində baş vermiş hadisə, proses və təzahürlərin səbəb – nəticə əlaqələrini təhlil edir;
5. Tarixi mənbələrin öyrənilməsi, xəritələr üzərində iş, xronoloji məsələlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.
6. Azərbaycanın milli-mənəvi dəyərlərini, dövlətçiliyin əhəmiyyətini, dövlətlərin ərazi bütövlüyünü və onların tarixi inkişafını dəyərləndirir.

Yuxarıda verilən ümumi təlim nəticələrinə uyğun olaraq ümumi orta təhsil səviyyəsi aşağıdakı təlim nəticələri müəyyən edilmişdir:

- Azərbaycan tarixində anlayış və terminlərin mahiyyətini anladığını nümayiş etdirir;
- İl hesabı və tarixi zaman ölçülərindən istifadə edir;
- Xəritə bacarıqlarından istifadə edir;
- Tarixi mənbələr üzərində tədqiqatlar aparır;
- Təbii-coğrafi şəraitin sosial-iqtisadi inkişafa təsirlərini izah edir;
- Azərbaycan dövlətlərinin siyasi və sosial-iqtisadi xüsusiyyətlərini müəyyən edir;
- Azərbaycan dövlətlərinin daxili və xarici siyasətini təhlil edir;
- Tarixi şəxsiyyətlərin fəaliyyətinin əsas xüsusiyyətlərini müəyyən edir;
- Tarixi şəxsiyyətlərin fəaliyyətinin əhəmiyyətini dəyərləndirir;
- Tarixi hadisə, proses və təzahürlərin səbəb və nəticələrini müəyyən və təhlil edir;
- Azərbaycanın mədəni inkişaf xüsusiyyətlərinin dünya sivilizasiyaları ilə əlaqələrini təhlil edir.
- Azərbaycanın mədəni nailiyyətlərini mədəniyyətin sahələri üzrə təsnifatlaşdırır;

**Tam orta təhsil səviyyəsinin sonunda Azərbaycan tarixi fənni üzrə ümumi təlim nəticələri:**

1. Azərbaycan tarixi ilə bağlı anlayışları,terminləri və faktları izah edir və kontekstdə istifadə edir;
2. Müasir dövrdə Azərbaycanda baş verən tarixi hadisə, proses və təzahürlərlə bağlı müxtəlif məlumat və fikirləri dəyərləndirir.
3. Azərbaycan dövlətlərinin siyasi, sosial-iqtisadi və mədəni xüsusiyyətlərini eyni və

müxtəlif dövrlər baxımından müqayisə edir, təhlillər aparır və öz mülahizələrini bildirir;

4. Azərbaycan tarixi ilə bağlı müxtəlif mənbələr üzərində tədqiqatlar apararaq onların arasındakı fərqləri müəyyən edir və əldə etdiyi məlumatları sistemləşdirərək təqdimat hazırlayır;
5. Müasir dövrdə və əvvəlki tarixi dövrlərdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni xüsusiyyətləri arasında müqayisələr apararaq nəticə çıxarır.
6. Müasir dövrdə Azərbaycanın dünyadakı rolu və mövqeyi, habelə qlobal proseslərdə iştirakı ilə bağlı mülahizələr bildirir və proqnozlar verir.

**Yuxarıda verilən ümumi təlim nəticələrinə uyğun olaraq tam orta təhsil səviyyəsi üçün aşağıdakı təlim nəticələri müəyyən edilmişdir:**

- Azərbaycan tarixi ilə bağlı anlayış və terminləri kontekstdə istifadə edir;
- Azərbaycan tarixinin müxtəlif tarixi dövrlərində meydana gələn siyasi, sosial-iqtisadi və mədəni xüsusiyyətləri əlaqələndirir;
- Azərbaycanın tarixi xəritələri üzərində olan dəyişiklikləri izah və təhlil edir;
- Tarixi mənbələrin müqayisəli təhlilini apararaq onların Azərbaycan tarixinin öyrənilməsində dəyərli və əksik cəhətlərini müəyyən edir;
- Müasir dövrdə mövcud olan təbii-coğrafi şəraitin Azərbaycanda sosial-iqtisadi inkişafa təsirlərini təhlil edir;
- Azərbaycan dövlətlərinin daxili və xarici siyasətini dövr və ictimai-iqtisadi münasibətlər baxımından təhlil edir;
- Tarixi şəxsiyyətlərin fəaliyyətini müqayisə edir;
- Tarixi şəxsiyyətlərin əhəmiyyətini dövrün şərtləri baxımından dəyərləndirir;
- Tarixi hadisə, proses və təzahürlərin səbəb və nəticələrini müqayisəli şəkildə təhlil edir;
- Azərbaycanda müasir və ənənəvi mədəni inkişaf xüsusiyyətlərini təhlil edir;
- Azərbaycan tarixinin öyrənilməsində İKT-nın imkanlarını tətbiq edir;
- Azərbaycan tarixində gedən siyasi, sosial-iqtisadi və mədəni prosesləri siyasi dağınıqlığın, mütəmləkə rejiminin və müstəqil respublikaların olduğu dövrlər baxımından dəyərləndirir.
- Müasir tarixi proseslərin Azərbaycana təsirini dəyərləndirir;
- Müasir dövrdə Azərbaycanın dünyada dini dözümlülüyün, tolerantlığın, təhlükəsizliyin və sabitliyin nümunəsi olması ilə bağlı faktlara söykənərək fikir bildirir.

Qeyd edilmiş təlim nəticələri öz əksini məzmun xətlərində tapmışdır. Tarix kurikulumunda dörd məzmun xətti müəyyən olunmuşdur:

1. **Tarixi zaman və məkan**
2. **Dövlət**
3. **Şəxsiyyət**
4. **Mədəniyyət**

**Tarixi zaman və məkan.** Tarixi hadisə, proses və təzahürlər müəyyən bir zaman çərçivəsində və məkan daxilində baş verir. Bu məzmun xətti şagirdlərdə tarixi zaman və məkana aid bilik və bacarıqlar formalaşdırır. Tarixi zaman və məkana aid anlayışlar, biliklər və bacarıqlar şagirdlərə hadisə, proses və təzahürləri baş verdiyi dövrün, məkanın xüsusiyyətlərini, təbii-coğrafi şəraitini müəyyənləşdirməyə və onların təsirini təhlil etməyə imkan yaradır. Azərbaycan və dünya tarixində baş verən siyasi və sosial-iqtisadi dəyişiklikləri zaman və məkanla əlaqədə anlayan şagird, həmçinin bu dəyişikliklərin səbəb və nəticələrini də müəyyən və təhlil edə bilir. İnsanların həyat tərzindəki dəyişikliklərin məkanla əlaqədə izlənilməsi, təbiətlə cəmiyyət arasındakı qarşılıqlı təsirlərin müəyyən edilməsi, xronoloji və sinxron məsələlərin həlli tarixi faktların şüurlu və ardıcıl mənimsənilməsində əhəmiyyətli rola malikdir.

**Dövlət.** Dövlət məzmun xətti Azərbaycan ərazisində yaranan dövlətlərin siyasi, sosial-iqtisadi və xüsusiyyətlərinin öyrənilməsində və dövlətçilik ənənələrimizin əhəmiyyətinin dərk edilməsində əsas rol oynayır. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqların şagirdlər tərəfindən mənimsənilməsi və nümayiş etdirilməsi bu məzmun xətti vasitəsilə gerçəkləşir. Nəticədə, şagirdlər Azərbaycanda müxtəlif tarixi dövrlərdə mövcud olmuş dövlətlərin yaranması, inkişafı və tənəzzülünün səbəb və nəticələrini aydınıaşdırır, həmçinin bu dövlətlərin siyasi-inzibati quruluşunu, onların qəbul etdiyi qanunları, dövlətlərarası münasibətləri təhlil edir, dövlətin cəmiyyət həyatındakı rolunu dəyərləndirir.

**Şəxsiyyət.** Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin tarixi hadisə, proses və təzahürlərə mühüm və istiqamətverici təsirləri olmuşdur. Bu məzmun xətti vasitəsilə şagirdlər şəxsiyyətlərin fəaliyyətini tarixi mənbələr vasitəsilə araşdırır, onların öz dövründəki və sonrakı dövrlərdəki siyasi və sosial-iqtisadi məsələlərə təsirini dəyərləndirir, müqayisəli təhlillər aparır. Tarixi şəxsiyyətlər haqqında bilik və bacarıqları mənimsəyən şagird bu proses ərzində həm onların siyasi və sosial-iqtisadi fəaliyyətinə tənqidi təfəkkürlə yanaşmağı, həm də onların yaşadığı dövrlə tarixi empatiya qurmağı öyrənir.

**Mədəniyyət.** Mədəniyyət məzmun xətti şagirdlərə müxtəlif tarixi dövrlər ərzində Azərbaycan mədəniyyətinin, onun müxtəlif sahələrinin tarixi inkişafını və onun dünya mədəniyyətinə verdiyi töhfələri qavramağa, izləməyə, təhlil etməyə və dəyərləndirməyə imkan yaradır. Bu məzmun xəttinə görə şagirdlər cəmiyyətinin inkişafında Azərbaycan mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirəcəklər. Şagirdlər Azərbaycan mədəniyyətinin inkişafını və bu inkişafa təsir edən siyasi və sosial-iqtisadi amilləri müəyyən və təhlil edəcək, sivilizsiyalararası və mədəniyyətlərarası əlaqələrdə Azərbaycan mədəniyyətinin rolunun dəyərləndirəcəklər. Buradakı məzmun standartları şagirdlərdə milli-mənəvi dəyərləri, onların tarixi inkişafını və ümumbəşəri dəyərlərlə qarşıqlıqlı təsirlərini təhlil etməyə kömək edəcəkdir.

***Qeyd 1**: 5-11-ci siniflərdə Azərbaycan tarixi üzrə bütün məzmun xətlərinə aid standartlar olmalıdır.*

***Qeyd 2:** Ümumi təhsil pilləsində Azərbaycan tarixi fənni üzrə müəyyənləşdirilmiş məzmun xətləri vasitəsilə təhsilalanlarda təfəkkürlə (yaradıcılıq (kreativlik), tənqidi təfəkkür, problem həlletmə, qərar qəbuletmə, müstəqil öyrənmə), fəaliyyətlə (ünsiyyət, əməkdaşlıq, rəqəmsal və informasiya savadlılığı) və dəyərlərlə (fəal vətəndaş mövqeyi) bağlı səriştələr də formalaşdırılır.*

***Qeyd 3:*** *Azərbaycan tarixi fənninin tədris olunduğu siniflər üzrə ümumi təlim nəticələrinə uyğun standartlar məzmun xətləri üzrə verilmişdir. Fənn üçün nəzərdə tutulan məzmun üç sütunda təqdim edilir. Birinci sütunda altstandartlar, ikinci sütunda altstandartlara aid anlayışlar, modellər, prinsiplər, qayda və qanunlar sadalanır. Üçüncü sütunda altstandartları reallaşdırmaq üçün sinifdaxili fəaliyyətlər tövsiyə edilir.*

***Qeyd 4:*** *Kodlaşmada birinci ədəd sinfi, ikinci ədəd məzmun xəttini, üçüncü ədəd əsas standartı, dördüncü ədəd altstandartı təyin edir.*

***Qeyd 5:*** *Bu kurikulumda altstandartlar bir çox hallarda təlim nəticələrinə bərabər tutulur.*

## MƏZMUN STANDARTLARI

<table>
<tr><td colspan="3">V sinif</td></tr>
<tr><td colspan="3">Məzmun xətti 1: TARİXİ ZAMAN VƏ MƏKAN</td></tr>
<tr><td colspan="3">Standart: 5-1.1. Tarix və onun əsas anlayışları ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.</td></tr>
<tr><td>Alt standartlar</td><td>İzahlar</td><td>Tövsiyə edilən sinifdaxili fəaliyyətlər</td></tr>
<tr><td>5-1.1.1. Tarix elmi və onun əsas anlayışlarını anlayır.</td><td>- Tarix və onun əsas anlayışları, tarixi mənbə və onun növləri, il hesabı, təqvim və tarixi zaman ölçü vahidləri.</td><td>- İlin yüzilliyə və minilliyə çevrilməsi, tarixi anlayış və mənbələr haqqında məlumatların təqdim edilməsi.</td></tr>
<tr><td colspan="3">Standart: 5-1.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri zaman və məkanla əlaqələndirir.</td></tr>
<tr><td>5-1.2.1. Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürləri zaman və məkanla əlaqədə anlayır.</td><td>- Hadisələrin xronoloji ardıcıllığı.</td><td>- Zaman oxu üzərində hadisələrin ardıcıllığının müəyyən edilməsi və hesablamaların aparılması.<br>- Keçmiş, indi və gələcək arasında fərqin müəyyən edilməsi</td></tr>
<tr><td>5-1.2.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri anlayır.</td><td>- Müxtəlif dövrlərdə təsərrüfatın inkişafı.<br>- İnsanların həyat tərzindəki dəyişikliklər.<br>- Mühüm tarixi hadisə, proses və təzahürlər.</td><td>- Sosial-iqtisadi və siyasi dəyişikliklərlə bağlı təqdimat edilməsi, muzeylərə və tarixi yerlərə ekskursiyaların təşkili.</td></tr>
<tr><td>5-1.2.3. Təbii şəraitin insan və cəmiyyət üçün əhəmiyyətini anlayır.</td><td>- İnsanların məskunlaşdıqları ərazinin (dağ,düzən, çay, göl ətrafı və.s.) onların həyat tərzinə təsiri.</td><td>- Yaşayış məskənlərinin (dağ, düzən, çay-göl ətrafı və.s.) yerləşdiyi ərazinin sadə xəritələrdə müəyyən edilməsi;<br>- Tarixi yerlərə ekskursiyaların təşkili;<br>- Təbii şəraitin insan və cəmiyyətə təsirləri ilə bağlı müxtəlif formalarda təqdimat edilməsi.</td></tr>
<tr><td colspan="3">Məzmun xətti 2: DÖVLƏT</td></tr>
<tr><td colspan="3">Standart: 5-2.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.</td></tr>
</table>

| | | |
|---|---|---|
| **5-2.1.1. Azərbaycan ərazisində mövcud olmuş dövlətləri** *(Manna, Atropatena, Albaniya, Sacilər, Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, İrəvan xanlığı, Qarabağ xanlığı, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR, Azərbaycan Respublikası)* ***tanıyır.*** | - Müxtəlif tarixi dövrlərdə Azərbaycanda meydana gələn dövlətlər haqqında mühüm məlumatlar. | - Azərbaycanda dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı müzakirələr aparılması və onlar haqqında müxtəlif formalarda təqdimat edilməsi. |
| ***5-2.1.2. Cəmiyyətin həyatında dövlətin əhəmiyyətini dəyərləndirir.*** | - Dövlətin cəmiyyət həyatındakı rolu və fəaliyyəti. | - Dövlətin cəmiyyət həyatındakı rolu və fəaliyyəti ilə bağlı müzakirələr aparılması və müxtəlif formalarda təqdimat edilməsi. |
| **Məzmun xətti 3: TARİXİ ŞƏXSİYYƏT** | | |
| ***Standart: 5-3.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı bilik və bacarıqları nümayiş etdirir.*** | | |
| ***5-3.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri*** *(İranzu, Tomiris, Atropat, Cavanşir, Babək, Yusif ibn Əbu Sac, Şəmsəddin Eldəniz, Şirvanşah I İbrahim, Qara Yusif, Həsən padşah, Saray (Sara) xatun, Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Pənahəli xan, Cavad xan, Qubalı Fətəli xan, Səttarxan, Məhəmməd Əmin Rəsulzadə, Həzi Aslanov, Əbülfəz Elçibəy, Heydər Əliyev, İlham Əliyev)* ***tanıyır.*** | - Tarixi şəxsiyyətlərin *(İranzu, Tomiris, Atropat, Cavanşir, Babək, Yusif ibn Əbu Sac, Şəmsəddin Eldəniz, Şirvanşah I İbrahim, Qara Yusif, Həsən padşah, Saray (Sara) xatun, Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Pənahəli xan, Cavad xan, Qubalı Fətəli xan, Səttarxan, Məhəmməd Əmin Rəsulzadə, Həzi Aslanov, Əbülfəz Elçibəy, Heydər Əliyev, İlham Əliyev)* fəaliyyəti. | - Tarixi şəxsiyyətlərin fəaliyyəti ilə bağlı sadə araşdırma aparılması (muzey, kitabxana, mətbuat, televiziya materialları və internet resursları əsasında); Müxtəlif formalarda təqdimat hazırlanması. |
| ***5-3.1.2. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dövr baxımından dəyərləndirir.*** | - Tarixi şəxsiyyətlərin fəaliyyəti və onların cəmiyyətin həyatında rolu. | - Mənbələr əsasında tarixi şəxsiyyətlərin fəaliyyəti, onların cəmiyyətin həyatında rolu haqqında müzakirə edilməsi və təqdimat hazırlanması. |
| **Məzmun xətti 4: MƏDƏNİYYƏT** | | |
| ***Standart: 5-4.1. Cəmiyyətin inkişafında mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |

| | | |
|---|---|---|
| ***5-4.1.1. Mədəniyyət və onun sahələrini tanıdığını nümayiş etdirir.*** | - Mədəniyyət anlayışı və onun növləri (maddi və mənəvi).<br>- Elm, təhsil, memarlıq və incəsənət sahələri. Əcəmi Əbubəkr oğlu, Nəsirəddin Tusi, Abbasqulu ağa Bakıxanov, Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, Üzeyir Hacıbəylinin mədəniyyətimizin inkişafında rolu.<br>- Memarlıq abidələri və digər maddi mədəniyyət nümunələri. | - Mədəniyyət növləri və sahələri ilə bağlı müzakirələrin təşkili və müxtəlif formalarda təqdimat edilməsi;<br>- Muzeylərə və tarixi abidələrə ekskursiyaların təşkil olunması;<br>- Azərbaycan mədəniyyətinin müxtəlif dövrlərdə xüsusiyyətləri, sahələri ilə bağlı bacarığa əsaslanan intelektual müsabiqələrin, oyun və yarışların təşkili<br>- Tarixi məzmunlu film və tamaşaların izlənilməsi.<br>- Bədii əsərlərin və mətbuatın mütaliəsi, musiqi dinlənilməsi.<br>- Muzeylərə və tarixi abidələrə ekskursiyaların təşkil olunması.<br>- Memarlıq abidələrinin müxtəlif formalarda maketlərinin hazırlanması. |
| ***5.4.1.2. Milli-mənəvi dəyərləri tanıdığını nümayiş etdirir.*** | - Müxtəlif dövrlərdə formalaşmış milli-mənəvi dəyərlər (adət-ənənə, dini inanclar, bayramlar). Memarlıq abidələri və digər maddi mədəniyyət nümunələri. | - Milli və mənəvi dəyərlər haqqında müzakirələrin təşkili və müxtəlif formalarda təqdimat edilməsi. |
| **VI sinif** | | |
| **Məzmun xətti 1: TARİXİ ZAMAN VƏ MƏKAN** | | |
| ***Standart: 6-1.1. Tarix və onun əsas anlayışları ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| ***6-1.1.1. Tarix elmi, onun əsas anlayışları və terminlərini müəyyən edir.*** | - Tarix və onun əsas anlayışları, il hesabı, təqvim və tarixi zaman ölçü vahidləri, tarixi dövrlər<br>- Tarixi fakt və hadisələrin sinxironluğu | - İlin yüzilliyə və minilliyə çevrilməsi, tarixi anlayışlar (era və s.) haqqında məlumatların təqdim edilməsi.<br>- Tarixi dövrlərin (Qədim dövr, Orta əsrlər dövrü, Yeni və Müasir dövr) müəyyən edilməsi. |

| | | |
|---|---|---|
| ***6-1.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri zaman və məkanla əlaqələndirir.*** | | |
| **6-1.2.1. *Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürləri zaman və məkanla əlaqədə müəyyən edir.*** | - Müxtəlif zamanda və məkanda baş vermiş xronoloji hadisə və proseslər | - Zaman oxu üzərində mühüm hadisələrin ardıcıllığının müəyyən edilməsi və hesablamaların aparılması.<br>- Xronoloji məsələlərin həll edilməsi. |
| **6-1.2.2. *Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri müəyyən edir.*** | - Sosial-iqtisadi və siyasi dəyişikliklərin zaman və məkanla əlaqəsi | - Tarixi mənbə əsasında kiçik araşdırmaların aparılması.<br>- Dövrün sosial-iqtisadi vəziyyəti və idarəetmə quruluşu haqqında təqdimatların hazırlanması |
| **6-1.2.3. *Təbii-coğrafi şəraitin insan və cəmiyyət üçün əhəmiyyətini müəyyən edir.*** | - Təbii coğrafi şəraitin cəmiyyətin həyatına təsiri | - Xəritələrdən istifadə etməklə təbii coğrafi şəraitin cəmiyyətin inkişafına təsiri ilə bağlı tədqimat edilməsi |
| **Məzmun xətti 2: DÖVLƏT** | | |
| ***Standart: 6-2.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı , tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| **6-2.1.1. *Azərbaycan ərazisində dövlətlərin*** *(Lullubi, Kuti, Manna, Midiya, İskit, Atropatena, Albaniya)* ***yaranması, inkişafı və tənəzzülünü müəyyən edir.*** | - Azərbaycan ərazisində dövlətlərin (*Lullubi, Kuti, Manna, Midiya, İskit, Atropatena, Albaniya*) qurulmasına şərait yaradan səbəblər, siyasi hadisələr və sosial-iqtisadi münasibətlər.<br>- Bu proseslərin əhalinin həyat şəraitinə, qonşu dövlətlərlə münasibətlərinə təsiri.<br>- Dövlətlərin mövcud olmasının əhəmiyyəti. | - Dövlətlərin qurulmasına səbəb olan amillər və təbii-coğrafi şəraitin təsiri ilə bağlı müzakirə aparılması.<br>- Sosial-iqtisadi, siyasi tədbirlərin insanların həyat şəraitinə və dövlətin inkişafına təsirləri ilə bağlı tarixi mənbə əsasında araşdırma aparılması.<br>- Dövlətlərin fəaliyyəti ilə bağlı cədvəl, sxem və diaqramlar tərtib edilməsi.<br>- Dövlətlərin yerləşdikləri ərazilərin xəritələr üzərində müəyyən edilməsi. |
| **6-2.1.2. *Cəmiyyətin həyatında dövlətin əhəmiyyətini dəyərləndirir.*** | - Cəmiyyətin siyasi, sosial-iqtisadi və mədəni həyatına dövlətin təsiri. | - Xalqın təhlükəsiz yaşamasına və rifahına dövlətin təsirinin araşdırılması ilə bağlı müxtəlif formalı təqdimat hazırlanması. |

| Məzmun xətti 3: TARİXİ ŞƏXSİYYƏT | | |
|---|---|---|
| **Standart: 6-3.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı bilik və bacarıqları nümayiş etdirir.** | | |
| **6-3.1.1.** ***Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin*** *(İranzu, Ullusunu, Ahşeri, Tomiris, Atropat, Oroys)* ***fəaliyyətini müəyyən edir.*** | - Tarixi şəxsiyyətlərin *(İranzu, Ullusunu, Ahşeri, Tomiris, Atropat, Oroys)* fəaliyyəti. | - Tarixi şəxsiyyətlərin fəaliyyəti ilə bağlı müxtəlif formalı təqdimatların (şifahi, görüntülü, yazılı və s.) hazırlanması. Şəxsiyyətlərin fəaliyyətləri ilə bağlı müzakirələr təşkil edilməsi. |
| **6-3.1.2.** ***Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dövr baxımından dəyərləndirir.*** | - Tarixi şəxsiyyətlərin fəaliyyəti və onların cəmiyyətin həyatında rolu. | - Şəxsiyyətin fəaliyyətini mənbələrdən (dərslik, mətbuat, televiziya materialları və internet resursları) istifadə edərək dəyərləndirir, kiçik hekayə tərtib edilməsi. |
| **Məzmun xətti 4: MƏDƏNİYYƏT** | | |
| **Standart: 6-4.1. Cəmiyyətin inkişafında mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| **6-4.1.1.** ***Azərbaycan mədəniyyəti və onun inkişaf xüsusiyyətlərini müəyyən edir.*** | - Qədim dövrdə (İbtidai icma, Lullubi, Kuti, Manna, Atropatena, Albaniya) Azərbaycan mədəniyyəti.<br>- Qədim mədəniyyətlərin (Mezopotamiya, Midiya, Yunanıstan, Makedoniya, Roma) Azərbaycan mədəniyyəti ilə qarşılıqlı əlaqələri.<br>- Mədəniyyətin sahələri - elm, təhsil, ədəbiyyat, memarlıq və incəsənətin inkişafı.<br>- Memarlıq abidələri və digər maddi mədəniyyət nümunələri. | - İbtidai icma quruluşunda cəmiyyətin həyatındakı mədəni dəyişikliklərin mənbələr əsasında müəyyən edilməsi.<br>- Qədim Azərbaycan dövlətlərində mədəni yeniliklərin izahı və təsnifatlaşdırılması.<br>- Qədim sivilizasiyaların Azərbaycan mədəniyyətinə təsirlərinin müzakirə edilməsi.<br>- Qədim dövrlərə bağlı muzeylərə və tarixi abidələrə ekskursiyaların təşkil olunması.<br>- Qədim dövr Azərbaycan mədəniyyətinin xüsusiyyətləri, sahələri ilə bağlı bacarığa əsaslanan intelektual müsabiqələrin, oyun və yarışmaların təşkili.<br>- Tarixi məzmunlu film və tamaşaların izlənilməsi, bədii |

| | | |
|---|---|---|
| | | əsərlərin və mətbuatın mütaliəsi, musiqi dinlənilməsi.<br>- Memarlıq abidələrinin müxtəlif formalarda maketlərinin hazırlanması. |
| **6-4.1.2.** ***Milli-mənəvi dəyərləri müəyyən edir.*** | - Qədim dövrdə formalaşmış milli-mənəvi dəyərlər (adət-ənənə, ataya, anaya, qadına hörmət, tolerantlıq, dini inanclar,). | - Din və inancların xüsusiyyətləri və yayılması ilə bağlı müzakirələrin təşkili və müxtəlif formalarda təqdimat edilməsi.<br>- Mənəvi dəyərlərin tariximizdəki izlərinin araşdırılması |
| **VII sinif** | | |
| **Məzmun xətti 1: TARİXİ ZAMAN VƏ MƏKAN** | | |
| ***Standart: 7-1.1. Tarix və onun əsas anlayışları ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| ***7-1.1.1. Tarixi anlayışları və terminləri fərqləndirir.*** | - III-XI yüzilliyin ortalarında Azərbaycanla bağlı əsas tarixi anlayışlar | - Azərbaycanda III-XI yüzilliyin ortaları ilə bağlı tarixi anlayışlar haqqında məlumatların təqdim edilməsi. |
| ***Standart: 7-1.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri zaman və məkanla əlaqələndirir.*** | | |
| **7-1.2.1.** ***Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürləri zaman və məkanla əlaqədə izah edir.*** | -III-XI yüzilliyin ortalarında Azərbaycanda baş vermiş hadisə və proseslərin zaman və məkanla əlaqələri.<br>-Tarixi fakt və hadisələrin sinxronluğu. | - Azərbaycanda baş vermiş tarixi hadisələrin zamana və məkana görə müəyyən edilməsi.<br>- Hadisə və proseslərin xəritə üzərində izah edilməsi.<br>- Müxtəlif tarixi məkanlara ekskursiyaların təşkil edilməsi<br>- Müxtəlif xronoloji məsələlərin həll edilməsi |
| ***7-1.2.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri izah edir.*** | - III-XI yüzilliyin ortalarında Azərbaycanda sosial-iqtisadi və siyasi həyatda baş vermiş dəyişikliklər. | - Azərbaycanda orta əsrlərdə sosial-iqtisadi həyatda baş vermiş dəyişikliklərlə (feodal münasibətlərinin, torpaq mülkiyyət formaları, vergilər, idarəetmə qaydaları) bağlı cədvəl, sxem və diaqramlar tərtib edilməsi. |

| | | |
|---|---|---|
| ***7-1.2.3. Təbii-coğrafi şəraitin insan və cəmiyyət üçün əhəmiyyətini izah edir.*** | - Təbii-coğrafi şəraitin cəmiyyətin həyatı üçün əhəmiyyəti. | - Xəritədən istifadə edərək Azərbaycanın yerləşdiyi təbii coğrafi məkanın əhəmiyyətinin müzakirə edilməsi. |
| **Məzmun xətti 2: DÖVLƏT** | | |
| ***Standart: 7-2.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| ***7-2.1.1. Azərbaycan ərazisində dövlətlərin*** *(Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər)* ***yaranması, inkişafı və tənəzzülünü izah edir.*** | - III-XI yüzilliyin ortalarında Azərbaycan ərazisində dövlətlərin *(Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər)* qurulmasına, inkişafına və tənəzzülünə şərait yaradan səbəblər, siyasi hadisələr və sosial-iqtisadi münasibətlər.<br>- Bu proseslərin əhalinin həyat şəraitinə, qonşu dövlətlərlə münasibətlərinə təsiri.<br>- Dövlətlərin mövcud olmasının əhəmiyyəti.<br>- Qonşu dövlətlərlə əlaqələrin xalqların inkişafına təsiri. | - Dövlətlərin qurulmasına şərait yaradan amillərin müzakirə edilməsi.<br>- Sosial-iqtisadi tədbirlərinin insanların həyat şəraitinə və dövlətin inkişafına təsirlərinin müzakirə edilməsi.<br>- Mənbələr əsasında dövlətlərin fəaliyyəti haqqında müxtəlif təqdimatlar hazırlanması.<br>- Dövlətlərin fəaliyyəti ilə bağlı cədvəl, sxem və diaqramlar hazırlanması.<br>- Dövlətlərin yerləşdiyi ərazinin xəritə üzərində müəyyən edilməsi. |
| ***7-2.1.2. Cəmiyyətin həyatında dövlətin əhəmiyyətini dəyərləndirir.*** | - Cəmiyyətin siyasi, sosial-iqtisadi və mədəni həyatına dövlətin təsiri. | - Xalqın təhlükəsiz yaşamasına və rifahına dövlətin təsirinin araşdırılması ilə bağlı müxtəlif formalı təqdimat hazırlanması. |
| **Məzmun xətti 3: TARİXİ ŞƏXSİYYƏT** | | |
| **Standart: 7-3.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı bilik və bacarıqları nümayiş etdirir.** | | |
| ***7-3.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin*** *(Urnayr, III Vaçaqan, Cavanşir, Babək, Yusif ibn Əbu Sac, Mərzban ibn Məhəmməd, Fəzl ibn Məhəmməd, Vəhsudan)* ***fəaliyyətini izah edir.*** | - III-XI yüzilliyin ortalarında Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin *(Urnayr, III Vaçaqan, Cavanşir, Babək, Yusif ibn Əbu Sac, Mərzban ibn Məhəmməd, Fəzl ibn Məhəmməd, Vəhsudan)* fəaliyyətləri. | - Azərbaycan tarixi ilə bağlı şəxsiyyətlərin fəaliyyəti haqqında mənbələr əsasında araşdırmalar aparır və müxtəlif formalı təqdimatlar edir.<br>- Şəxsiyyətlərin fəaliyyətini müqayisə edərək təhlillər edir. |

| | | |
|---|---|---|
| ***7-3.1.2. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dövr baxımından dəyərləndirir.*** | - Tarixi şəxsiyyətlərin fəaliyyəti və onların cəmiyyətin həyatında rolu. | - “Sən olsaydın” üsulundan istifadə edərək tarixi şəxsiyyətin fəailiyyətinin dəyərləndirilməsi. |
| **Məzmun xətti 4: MƏDƏNİYYƏT** | | |
| ***Standart: 7.4.1. Cəmiyyətin inkişafında mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| ***7-4.1.1. Azərbaycan mədəniyyəti və onun inkişaf xüsusiyyətlərini izah edir.*** | - III-XI yüzilliyin ortalarında Azərbaycan mədəniyyətin sahələri - elm, təhsil, ədəbiyyat , memarlıq və incəsənətin inkişafı<br>- Azərbaycan İntibah mədəniyyəti<br>- Azərbaycan memarlıq abidələri və digər maddi mədəniyyət nümunələri.<br>- Azərbaycan elm, ədəbiyyat və incəsənət xadimləri və onların əsərləri<br>- Azərbaycanda mövcud olmuş dinlərin cəmiyyət həyatına təsiri. | - III-XI yüzilliyin ortalarında mədəniyyət sahəsində inkişaf və dəyişikliklərin səbəblərinin və nəticələrinin müzakirə edilməsi.<br>- Muzeylərə və tarixi abidələrə ekskursiyaların təşkil olunması.<br>- İntibah mədəniyyətinin inkişaf xüsusiyyətlərinin müəyyən edilməsi.<br>- Memarlıq abidələrinin müxtəlif formalarda maketlərinin hazırlanması.<br>- Azərbaycan tarixi dərslərinin STEAM ilə inteqrasiyası (məs. mancanaq hazırlanması).<br>- Tarixi məzmunlu film və tamaşaların izlənilməsi, bədii əsərlərin və mətbuatın mütaliəsi.<br>- Vahid din amilinin Azərbaycan tarixi baxımından dəyərləndirilməsi.<br>- Dinin mədəniyyətə təsirlərinin müəyyən edilməsi.<br>- Mənbələr əsasında mədəniyyətin xüsusiyyətlərinin araşdırılması və sadə formada təhlil edilməsi.<br>- Elmin, incəsənətin inkişafı ilə bağlı digər fənlərlə inteqrasiya edilməsi və təqdimat hazırlanması. |

| | | |
|---|---|---|
| ***7-4.1.2. Milli-mənəvi dəyərləri izah edir.*** | - III-XI yüzilliyin ortalarında formalaşmış milli-mənəvi dəyərlər (adət-ənənə, vahid din amili). | - Din və inancların xüsusiyyətləri və yayılması ilə bağlı müzakirələrin təşkili. |
| **VIII sinif** | | |
| **Məzmun xətti 1: TARİXİ ZAMAN VƏ MƏKAN** | | |
| ***Standart: 8.1.1. Tarix və onun əsas anlayışları ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| **8.1.1.1**. ***Tarixi anlayışları və terminləri izah edir.*** | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycanla bağlı əsas tarixi anlayışlar. | - Dövrə aid əsas tarixi anlayışların və terminlərin izah edilməsi. |
| ***Standart: 8.1.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri zaman və məkanla əlaqələndirir.*** | | |
| ***8-1.2.1. Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürləri zaman və məkanla əlaqədə şərh edir.*** | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycan tarixində baş vermiş hadisə, proses və təzahürlərin zaman və məkanla əlaqələri. | - Tarixi davamlılıq və dəyişikliyi əks etdirən qrafiklər və sxemlərin tərtib edilməsi.<br>- XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında baş vermiş hadisələrin xəritə üzərində şərh edilməsi. |
| ***8-1.2.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri şərh edir.*** | -XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycanda sosial-iqtisadi və siyasi sahədə baş verən dəyişikliklər. | - Müxtəlif mənbələrdən istifadə edərək XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycanda torpaq mülkiyyət formaları, vergilər, köçürmə prosesləri ilə bağlı təqdimatların hazırlanması.<br>- Siyasi dəyişikliklərin xəritələrdən istifadə etməklə şərh edilməsi.<br>- XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycanın təbii coğrafi şəraitinin ölkəmizin inkişafındakı roluna aid təqdimat hazırlanması. |
| ***8-1.2.3. Təbii-coğrafi şəraitin insan və cəmiyyət üçün əhəmiyyətini şərh edir.*** | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında təbii-coğrafi şəraitin insan və cəmiyyətin inkişafı üçün əhəmiyyəti. | - Təbii coğrafi şəraitin yeni kapitalist münasibətlərinin yaranması və inkişafında rolunun müzakirə edilməsi. |

| | | |
|---|---|---|
| **Məzmun xətti 2: DÖVLƏT** | | |
| ***Standart: 8-2.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| ***8-2.1.1. Azərbaycan ərazisində dövlətlərin*** *(Şirvanşahlar, Şəddadilər, Rəvvadilər, Eldənizlər, Hülakülər, Cəlairilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilərin Ərdəbil hakimliyi)* ***yaranması, inkişafı və tənəzzülünü şərh edir.*** | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycan ərazisində dövlətlərin *(Şirvanşahlar, Şəddadilər, Rəvvadilər, Eldənizlər, Hülakülər, Cəlairilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilərin Ərdəbil hakimliyi)* qurulmasına və onların mərkəzləşməsinə şərait yaradan səbəblər, siyasi hadisələr və sosial-iqtisadi münasibətlər.<br>- Daxili və xarici siyasət<br>- Mərkəzləşdirilmiş dövlət və feodal dağınıqlığının ictimai-siyasi, iqtisadi və mədəni həyata təsiri. | - Dövlətlərin qurulmasına şərait yaradan amillərin müzakirə edilməsi.<br>- Sosial-iqtisadi tədbirlərinin insanların həyat şəraitinə və dövlətin inkişafına təsirlərinin müzakirə edilməsi.<br>- Mənbələr əsasında dövlətlərin fəaliyyəti haqqında müxtəlif təqdimatlar hazırlanması.<br>- Dövlətlərin daxili və xarici siyasəti ilə bağlı cədvəl, sxem və diaqramlar hazırlanması.<br>- Dövlətlərin yerləşdiyi ərazinin xəritə üzərində müəyyən edilməsi.<br>- Xanlıqların mövcudluğunun Azərbaycanın gələcək tarixi inkişafına təsirinin müzakirə edilməsi. |
| ***8-2.1.2. Cəmiyyətin həyatında dövlətin əhəmiyyətini dəyərləndirir.*** | - Cəmiyyətin siyasi, sosial-iqtisadi və mədəni həyatına dövlətin təsiri. | -Vahid dövlətin olmamasının xalqın təhlükəsizliyinə təsirlərinin araşdırılması. |
| **Məzmun xətti 3: TARİXİ ŞƏXSİYYƏT** | | |
| ***Standart: 8-3.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı bilik və bacarıqları nümayiş etdirir.*** | | |
| ***8-3.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin*** *(Əbuləsvar Şavur, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Şirvanşah III Mənuçöhr, Şirvanşah I Axsitan, Şirvanşah I İbrahim, Hülakü xan, Qazan xan, Şeyx Üveys, Qara Yusif, Cahan şah, Həsən padşah, Saray (Sara) xatun, Sultan Yaqub,* | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin *(Əbuləsvar Şavur, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Şirvanşah III Mənuçöhr, Şirvanşah I Axsitan, Şirvanşah I İbrahim, Hülakü xan, Qazan xan, Şeyx Üveys, Qara Yusif,* | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycanda dövlətin və cəmiyyətin inkişafına təsir edən tarixi şəxsiyyətlərin fəaliyyətini mənbələr əsasında araşdırır və müxtəlif formalı təqdimatlar hazırlayır. |

| | | |
|---|---|---|
| *Şeyx Cüneyd, Şeyx Heydər)* ***fəaliyyətini şərh edir.*** | *Cahan şah, Həsən padşah, Saray (Sara) xatun, Sultan Yaqub, Şeyx Cüneyd, Şeyx Heydər)* fəaliyyəti. | |
| ***8-3.1.2. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dövr baxımından dəyərləndirir.*** | - Tarixi şəxsiyyətlərin fəaliyyəti və onların cəmiyyətin həyatında rolu. | - Hadisəni dövr baxımından izah edərkən, tarixi şəxsiyyətlərin hadisə və proseslərə təsirini dəyərləndirmək üçün qrup müzakirələri təşkil etmək.<br>- Müxtəlif problemli situasiyalarda şəxsiyyətlərin fəaliyyətini dəyərləndirmək üçün internetdən tarixə əsaslanan kart oyunları təşkil etmək. |
| **Məzmun xətti 4: MƏDƏNİYYƏT** | | |
| ***Standart: 8.4.1. Cəmiyyətin inkişafında mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| ***8-4.1.1. Azərbaycan mədəniyyəti və onun inkişaf xüsusiyyətlərini şərh edir.*** | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında siyasi və iqtisadi proseslərin mədəniyətin inkşafına təsiri.<br>- XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında Azərbaycan mədəniyyətində ənənəvi və yeni xüsusiyyətlər.<br>- Mədəniyyətin sahələri - elm, təhsil, ədəbiyyat, memarlıq və incəsənətin sahələrində yeniliklər.<br>- Memarlıq abidələri və digər maddi mədəniyyət nümunələri. | - XI yüzilliyin ortaları – XV yüzilliyin sonlarında mədəniyyətinin oxşar və fərqli xüsusiyyətlərinin səbəblərinin təhlil edilməsi.<br>- Mədəniyyət sahəsindəki ənənəvi və yeni xüsusiyyətlərin müqayisəli şəkildə öyrənilməsi.<br>- Tarixi məzmunlu film və tamaşaların izlənilməsi, bədii əsərlərin və mətbuatın mütaliəsi.<br>- Azərbaycan tarixi dərslərinin STEAM ilə inteqrasiyası.<br>- Memarlıq abidələrinin müxtəlif formalarda maketlərinin hazırlanması. |
| ***8-4.1.2. Milli-mənəvi dəyərləri şərh edir.*** | - Milli-mənəvi və ümumbəşəri dəyərlər. | - Milli-mənəvi və ümumbəşəri dəyərlərin mədəniyyətin inkişafında rolunun təhlil edilməsi. |
| **IX sinif** | | |
| **Məzmun xətti 1: TARİXİ ZAMAN VƏ MƏKAN** | | |
| **Standart: 9-1.1. Tarix və onun əsas anlayışları ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |

| | | |
|---|---|---|
| **9-1.1.1**. ***Tarixi anlayışları və terminləri şərh edir.*** | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonları Azərbaycan tarixinə aid anlayışlar və terminlər. | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonları Azərbaycanda əsas tarixi anlayışların və terminlərin izah edilməsi. |
| **Standart: 9-1.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri zaman və məkanla əlaqələndirir.** | | |
| ***9-1.2.1. Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürləri zaman və məkanla əlaqədə təhlil edir.*** | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarına aid Azərbaycan tarixində baş vermiş hadisə, proses və təzahürlərin zaman və məkanla əlaqələri | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında Azərbaycanda baş vermiş tarixi hadisə, proses və təzahürlərin zaman və məkanla əlaqələrinin təhlil edilməsi ilə bağlı müxtəlif formada tədqimatların hazırlanması.<br>- Müxtəlif mənbələrdən istafadə edərək Azərbaycan tarixində baş vermiş hadisə, proses və təzahürlərin müzakirə edilməsi. |
| ***9-1.2.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri təhlil edir.*** | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında Azərbaycanda baş vermiş sosial-iqtisadi və siyasi proseslər. | - Müxtəlif mənbələrdən istifadə edərək Azərbaycanda sosial-iqtisadi dəyişikliklərlə bağlı təqdimatların hazırlanması.<br>- Ərazi dəyişiklərinin xəritələrdən istifadə etməklə müəyyən edilməsi, onların səbəb və nəticələrinin təhlil edilməsi. |
| ***9.1.2.3. Təbii-coğrafi şəraitin insan və cəmiyyət üçün əhəmiyyətini təhlil edir.*** | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında təbii-coğrafi şəraitin insan və cəmiyyətin inkişafı üçün əhəmiyyəti. | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında Azərbaycanın təbii coğrafi şəraitinin ölkəmizin inkişafına təsirinə aid təqdimat hazırlanması.<br>- Xəritələrdən istifadə etməklə ölkəmizin təbii-coğrafi şəraitinin rolunun müəyyən edilməsi. |
| **Məzmun xətti 2: DÖVLƏT** | | |
| ***Standart: 9-2.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*** | | |
| ***9-2.1.1. Azərbaycan ərazisində dövlətlərin*** *(Səfəvilər, Əfşarlar, xanlıqlar,* | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında Azərbaycan ərazisində | - Dövlətlərin qurulmasına şərait yaradan amillərin müzakirə edilməsi. |

| | | |
|---|---|---|
| *Qacarlar)* ***yaranması, inkişafı və tənəzzülünü təhlil edir.*** | dövlətlərin *(Səfəvilər, Əfşarlar, xanlıqlar, Qacarlar)* yaranması, inkişafı və tənəzzülü.<br>- Daxili və xarici siyasət. | - Sosial-iqtisadi tədbirlərinin insanların həyat şəraitinə və dövlətin inkişafına təsirlərinin müzakirə edilməsi.<br>- Mənbələr əsasında dövlətlərin fəaliyyəti haqqında müxtəlif təqdimatlar hazırlanması.<br>- Dövlətlərin daxili və xarici siyasəti ilə bağlı cədvəl, sxem və diaqramlar hazırlanması.<br>- Dövlətlərin yerləşdiyi ərazinin xəritə üzərində müəyyən edilməsi. |
| ***9-2.1.2. Cəmiyyətin həyatında dövlətin əhəmiyyətini dəyərləndirir.*** | - Cəmiyyətin siyasi, sosial-iqtisadi və mədəni həyatına dövlətin təsiri | - Düzgün aparılan xarici siyasi xəttin ərazi bütövlüyünün təmin edilməsinə təsirinin dəyərləndirilməsi.<br>- Müstəqil dövlətin mövcud olmasının xalqın təhlükəsizliyinə və rifahına təsirinin araşdırılması. |
| **Məzmun xətti 3: TARİXİ ŞƏXSİYYƏT** | | |
| ***Standart: 9.3.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı bilik və bacarıqları nümayiş etdirir.*** | | |
| ***9-3.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin*** *(Şah I İsmayıl, Şah I Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah I Abbas, Şah II Abbas, şah Sultan Hüseyn, Şah II Təhmasib, Nadir şah Əfşar, Fətəli xan Əfşar, Hacı Çələbi xan, Qubalı Fətəli xan, Pənahəli xan, İbrahimxəlil xan, Ağa Məhəmməd şah Qacar, Cavad xan, Qubalı Fətəli xan, Şeyxəli xan)* ***fəaliyyətini təhlil edir.*** | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında tarixi şəxsiyyətlərin *(Şah I İsmayıl, Şah I Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah I Abbas, Şah II Abbas, şah Sultan Hüseyn, Şah II Təhmasib, Nadir şah Əfşar, Fətəli xan Əfşar, Hacı Çələbi xan, Qubalı Fətəli xan, Pənahəli xan, İbrahimxəlil xan, Ağa Məhəmməd şah Qacar, Cavad xan, Qubalı Fətəli xan, Şeyxəli xan)* fəaliyyətləri. | - Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətləri ilə bağlı rollu oyunların təşkil edilməsi.<br>- Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətinin təhlili haqqında məqalə hazırlanması. |

| | | |
|---|---|---|
| ***9-3.1.2. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dövr baxımından dəyərləndirir.*** | - Tarixi şəxsiyyətlərin fəaliyyəti və onların cəmiyyətin həyatında rolu. | - Mənbələrdən istifadə etməklə Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin həm öz dövrlərində, həm də sonrakı tarixi dövrə təsir edən fəaliyyəti (ən vacib hesab etdiyi bir məqamı) ilə bağlı təqdimat hazırlanması. |
| **Məzmun xətti 4: MƏDƏNİYYƏT** | | |
| **Standart: 9-4.1. Cəmiyyətin inkişafında mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| ***9-4.1.1. Azərbaycan mədəniyyəti və onun inkişaf xüsusiyyətlərini təhlil edir.*** | - XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında Azərbaycan mədəniyyətinə təsir edən mühüm amillər (mərkəzləşdirilmiş dövlət, feodal dağınıqlığı dövrü və s.)<br>- XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında mədəniyyət sahəsində yeniliklər.<br>- XV yüzilliyin sonu – XVIII yüzilliyin sonlarında Mədəniyyətin sahələri - elm, təhsil, ədəbiyyat , memarlıq və incəsənətin inkişafı.<br>- Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə töhfələri. | - Azərbaycanda mərkəzləşdirilmiş dövlət və feodal dağınıqlığı dövründə mədəniyyətin müqayisəli şəkildə təhlil edilməsi<br>- Tarixi məzmunlu film və tamaşaların izlənilməsi, bədii əsərlərin və mətbuatın mütaliəsi,<br>- Azərbaycan tarixi dərslərinin STEAM ilə inteqrasiyası.<br>- STEAM-ın, süni intellektin Azərbaycan tarixinin öyrənilməsində rolunun müzakirə edilməsi<br>- Azərbaycan mədəniyyətinə aid hadisələr ilə bağlı ssenarilərin hazırlanması. |
| ***9-4.1.2. Milli-mənəvi dəyərləri təhlil edir.*** | - Milli-mənəvi dəyərlərin yeri və rolu. | - Milli-mənəvi dəyərlərin və Azərbaycanın müxtəlif sahələrdəki mədəni irsinin gələcəkdə təbliğ edilməsi ilə bağlı fikir mübadiləsinin aparılması. |
| **X sinif** | | |
| **Məzmun xətti 1: TARİXİ ZAMAN VƏ MƏKAN** | | |
| **Standart: 10-1.1. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri zaman və məkanla əlaqələndirir.** | | |
| ***10-1.1.1.*** Şimali ***Azərbaycanda baş vermiş mühüm hadisə, proses və*** | - İşğal və müstəmləkə rejimi və onların xüsusiyyətləri. | - Tarixi davamlılıq və dəyişikliyi əks etdirən |

| | | |
|---|---|---|
| ***təzahürləri*** İşğal və müstəmləkə rejimi ilə ***əlaqədə dəyərləndirir.*** | - İşğal və müstəmləkə rejiminin xüsusiyyətlərinin Şimali Azərbaycanda baş vermiş mühüm hadisə, proses və təzahürlərlə əlaqələndirilməsi.<br>- Azərbaycanda feodal münasibətlərinin başa çatması, kapitalist münasibətlərinin yaranması və inkişafı. | diaqramlar, cədvəllər, qrafiklər, sxemlərin və s. tərtib edilməsi.<br>- Mənbələrdən istafadə edərək Azərbaycan tarixində baş vermiş hadisə, proses və təzahürlərin müzakirə edilməsi.<br>- Azərbaycanda feodal və kapitalist münasibətlərinin xüsusiyyətlərinin yazılı və ya şifahi şəkildə müqayisə edilməsi. |
| ***10-1.1.2. Azərbaycanın sosial, iqtisadi və siyasi həyatında baş vermiş dəyişikliklərin səbəb və nəticələrini təhlil edir.*** | - 1801-1918-ci illərdə Azərbaycanın sosial, iqtisadi və siyasi həyatında baş vermiş dəyişikliklərin səbəb və nəticələri.<br>- Azərbaycanda kapitalist münasibətlərinin yaranması və inkişafının səbəb-nəticə əlaqələri. | - Azərbaycanın sosial, iqtisadi və siyasi həyatında baş vermiş dəyişiklikləri əks etdirən tematik sxem, diaqram və ya cədvəllərin hazırlanması.<br>- Müxtəlif dövrlərdə ərazi dəyişiklərinin xəritələrdən istifadə etməklə müəyyən edilməsi, onların səbəb və nəticələrinin təhlil edilməsi. |
| ***10-1.1.3. Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafına təsir edən təbii-coğrafi amilləri təhlil edir.*** | - Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafına təsir edən təbii-coğrafi amillər. | - Təbii-coğrafi amillərin sosial-iqtisadi və siyasi inkişafa təsirinin xəritə əsasında təhlil edilməsi.<br>- Azərbaycanın təbii-coğrafi mövqeyinin onun sosial-iqtisadi və siyasi inkişafına təsirinə dair diaqram, cədvəl, sxem və s. tərtib edilməsi. |
| ***10-1.1.4. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini təhlil edir.*** | - 1801-1918-ci illərdə Azərbaycanın geosiyasi mövqeyi | - Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyəti ilə bağlı diskussiyanın təşkil edilməsi.<br>- Tarixi məkanının xüsusiyyətlərinin tarixi inkişafa və hadisələrə təsirlərinin müzakirə edilməsi |
| **Məzmun xətti 2: DÖVLƏT** | | |
| **Standart: 10-2.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| ***10-2.1.1. İşğal və müstəmləkə rejimi*** | - *Şimali Azərbaycan* | - Şimali Azərbaycan ərazisinin |

| | | |
|---|---|---|
| ***şəraitində Şimali Azərbaycanda inzibati və idarəetmə sahəsində baş verən dəyişiklikləri təhlil edir.*** | *ərazisinin Rusiya tərəfindən işğalı*<br>- *Müstəmləkə şəraitində Şimali Azərbaycanda inzibati-idarə sistemi* | Rusiya tərəfindən işğalı, onun səbəb və nəticələri ilə bağlı müzakirələrin aparılması.<br>- Şimali Azərbaycan ərazisinin Rusiya tərəfindən işğalı, onun səbəb və nəticələri ilə bağlı ilə bağlı tarixi mənbə əsasında araşdırma aparılması və nəticələrin təqdim olunması.<br>- Müstəmləkə şəraitində Şimali Azərbaycansa inzibati-idarə sistemi ilə bağlı cədvəl, sxem və diaqramlar tərtib edilməsi.<br>- XIX-XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda inzibati-idarə sistemi ilə bağlı dəyişiklikləri xəritə üzərində müəyyən edilməsi.<br>- İnzibati-idarə sahəsində dəyişiklərin xəritələrdən istifadə etməklə müəyyən edilməsi, onların səbəb və nəticələrinin təhlil edilməsi.<br>- Çar Rusiyasının müstəmləkə siyasətinin Şimali Azərbaycanın tarixi inkişafına təsirinin müzakirə edilməsi.<br>- Azərbaycanın dövlətçilik ənənələrinə aid tarixi davamlılıq və dəyişikliyi əks etdirən diaqramlar, cədvəllər, qrafiklər, sxemlərin və s. tərtib edilməsi. |
| ***10-2.1.2. Qacarlar sülaləsinin hakimiyyəti dövründə Cənubi Azərbaycanın siyasi inkişafının xarakterik xüsusiyyətlərini təhlil edir.*** | - *Qacarlar sülaləsinin hakimiyyət dövrü*<br>- *Cənubi Azərbaycan siyasi inkişafı* | - Cənubi Azərbaycanda inzibati-idarə sistemi ilə bağlı dəyişiklikləri xəritə üzərində müəyyən edilməsi<br>- Qacarlar sülaləsinin hakimiyyəti dövründə Cənubi Azərbaycanda inzibati-idarə sistemi ilə bağlı cədvəl, sxem və diaqramlar tərtib edilməsi.<br>- Azərbaycanın dövlətçilik |

| | | |
|---|---|---|
| | | ənənələrinə aid tarixi davamlılıq və dəyişikliyi əks etdirən diaqramlar, cədvəllər, qrafiklər, sxemlərin və s. tərtib edilməsi. |
| ***10-2.1.3. Xarici dövlətlərin Azərbaycanla bağlı strateji maraqlarını dəyərləndirir.*** | - *Xarici dövlətlərin Azərbaycanla bağlı strateji maraqları*<br>- *Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyi* | - Xarici dövlətlərin Azərbaycanla bağlı strateji maraqlarının müzakirə edilməsi.<br>- Xarici dövlətlərin Azərbaycanla bağlı strateji maraqlarını əks etdirən diaqramlar, cədvəllər, qrafiklər, sxemlərin və s. tərtib edilməsi. |
| **Məzmun xətti 3: TARİXİ ŞƏXSİYYƏT** | | |
| **Standart: 10-3.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı bilik və bacarıqları nümayiş etdirir.** | | |
| ***10-3.1.1. Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin*** *(Cavad xan, Qubalı Şeyxəli xan, Abbas mirzə Qacar, Hacı Məhəmməd, Hacı Murtuz, Qaçaq Nəbi, Qaçaq Kərəm, Dəli Alı, Həsən bəy Zərdabi, Zeynəb paşa, Məhəmməd Əmin Rəsulzadə, Əli Mərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanlı, Əli bəy Hüseynzadə, Ağa xan İrəvanski, Ələkbər bəy Rəfibəyov, Xəlil bəy Xasməmmədov, Məmmədyusif Cəfərov, Sultan bəy Sultanov, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseyn xan Naxçıvanski, Hacı Zeynalabdin Tağıyev, Səttarxan, və s.)* ***fəaliyyətini təhlil edir.*** | - 1801-1918-ci illərdə Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin *(Cavad xan, Qubalı Şeyxəli xan, Abbas mirzə Qacar, Hacı Məhəmməd, Hacı Murtuz, Qaçaq Nəbi, Qaçaq Kərəm, Dəli Alı, Həsən bəy Zərdabi, Zeynəb paşa, Məhəmməd Əmin Rəsulzadə, Əli Mərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanlı, Əli bəy Hüseynzadə, Ağa xan İrəvanski, Ələkbər bəy Rəfibəyov, Xəlil bəy Xasməmmədov, Məmmədyusif Cəfərov, Sultan bəy Sultanov, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseyn xan Naxçıvanski, Hacı Zeynalabdin Tağıyev, Səttarxan və s.)* fəaliyyətləri. | - Müxtəlif informasiya mənbələrindən istifadə etməklə Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin siyasi fəaliyyətini təhlil edərək tarixi hekayə, esse və referatların yazılması.<br>- Tarixi şəxsiyyətlərin fəaliyyətlərinin müqayisə edilməsi.<br>- Mənbələr əsasında Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətinə dair verilmiş fakt və şərhlərin təhlil edilməsi. |

| | | |
|---|---|---|
| ***10-3.1.2. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dövr baxımından dəyərləndirir.*** | - Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin fəaliyyəti və onların cəmiyyətin həyatında rolu. | - Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin fəaliyyətinin dövrün şərtləri baxımından dəyərləndirilməsi.<br>- Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin fəaliyyətinin səbəb-nəticə əlaqəsində təhlil edilməsi.<br>- Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətindəki oxşar və fərqli cəhətlərin dövr baxımından qiymətləndirilməsi. |
| **Məzmun xətti 4: MƏDƏNİYYƏT** | | |
| **Standart:10-4.1. Cəmiyyətin inkişafında mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| ***10-4.1.1. Azərbaycan mədəniyyətinin inkişafı və ona təsir edən sosial-iqtisadi, siyasi amilləri təhlil edir.*** | - 1801-1918-ci illərdə Azərbaycan mədəniyyətinin inkişafının xüsusiyyətləri.<br>- Dünya mədəniyyətinin Azərbaycan mədəniyyəti ilə qarşılıqlı əlaqələri.<br>- Azərbaycanda elm, təhsil, ədəbiyyat, memarlıq və incəsənətin inkişafına təsir göstərən sosial-iqtisadi və siyasi amillər.<br>- Azərbaycan mədəniyyətində ənənəvi xüsusiyyətlər və yeni təzahürlər. | - 1801-1918-ci illərdə Azərbaycan mədəniyyətinin inkişafının xüsusiyyətlərinin müqayisə edilməsi.<br>- Azərbaycan mədəniyyətinin inkişafına təsir edən sosial-iqtisadi, siyasi amilləri əks etdirən diaqramlar, cədvəllər, qrafiklər, sxemlər və s. tərtib edilməsi.<br>- Tarixi məzmunlu film və tamaşaların izlənilməsi, bədii əsərlərin, mətbuatın mütaliəsi və müzakirə edilməsi.<br>- Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində baş verən dəyişikliklərin və yeniliklərin STEAM ilə inteqrasiyası əsasında təqdimat hazırlanması.<br>- Texnologiyanın inkişafı ilə bağlı məlumatların digər fənlərlə inteqrasiya edilməsi və təqdimat hazırlanması.<br>- Memarlıq abidələrinin maketlərinin hazırlanması. |

| | | |
|---|---|---|
| | | - Mənbələr əsasında dünya mədəniyyətinin Azərbaycan mədəniyyəti ilə qarşılıqlı əlaqələrinin və təsirlərinin müzakirə edilməsi.<br>- Mədəniyyət sahəsindəki ənənəvi və yeni xüsusiyyətlərin müqayisə edilməsi. |
| ***10-4.1.2. Milli-mənəvi dəyərləri təhlil edir.*** | - Milli-mənəvi dəyərlər və onların müxtəlif tarixi dövrlər ərzində inkişafı.<br>- Müxtəlif dövrlərdə Azərbaycanda mövcud olmuş dinlərin və müxtəlif ideologiyaların mədəniyyətə təsiri.<br>- Milli-mənəvi və ümumbəşəri dəyərlərin mədəniyyətin inteqrasiyasına təsiri. | - Milli-mənəvi dəyərlərin tarixi perspektivlik, empatiya və davamlılıq baxımından müzakirə edilməsi.<br>- Milli-mənəvi və ümumbəşəri dəyərlərin Azərbaycan mədəniyyətinin inkişafında rolunun təhlil edilməsi. |
| **XI sinif** | | |
| **Məzmun xətti 1: TARİXİ ZAMAN VƏ MƏKAN** | | |
| **Standart:11-1.1. Tarix və onun əsas anlayışları ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| ***11-1.1.1. Tarixi anlayışları və terminləri mahiyyətinə uyğun istifadə edir.*** | - Tarixi anlayışlar və terminlərin mahiyyəti | - Tarixi anlayışlar və terminlərlə bağlı diaqram, cədvəl, sxem və s. tərtib edilməsi.<br>- Termin və anlayışların izah edilməsi və kontekstdə (uyğun olaraq) istifadə edilməsi. |
| **Standart:11-1.2. Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişiklikləri zaman və məkanla əlaqələndirir.** | | |
| ***11-1.2.1. Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürləri dövrün və məkanın xüsusiyyətlərinə uyğun dəyərləndirir.*** | - Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürlər.<br>- Tarixi dövrün və məkanın xüsusiyyətləri | - Tarixi inkişafın müxtəlif dövrlərinə aid fakt, hadisə, təzahür və prosesləri məzmununa və səciyyəvi əlamətlərinə görə təsnif edilməsi.<br>- Mənbələrdən istafadə edərək Azərbaycan tarixində baş vermiş hadisə, proses və təzahürlərin müzakirə |

| | | |
|---|---|---|
| | | edilməsi.<br>- Azərbaycan tarixinə aid mühüm hadisə, proses və təzahürləri dövrün və məkanın xüsusiyyətlərinə uyğun müqayisə edilməsi |
| ***11-1.2.2. Azərbaycanın sosial, iqtisadi və siyasi həyatında baş vermiş dəyişikliklərin səbəb və nəticələrini dəyərləndirir.*** | - 1918-2024-cü illərdə Azərbaycanın sosial, iqtisadi və siyasi həyatında baş vermiş dəyişikliklərin səbəb və nəticələri | - Tarixi hadisə və proseslərlə bağlı zaman oxunun tərtib edilməsi və zaman oxunda təqdim olunan məlumatların şərh edilməsi.<br>- Azərbaycanda və dünyada baş verən mühüm tarixi hadisələrin sinxronluğunu əks etdirən cədvəl, diaqram və s. tərtib edilməsi.<br>- Azərbaycan tarixinə aid sosial-iqtisadi və siyasi dəyişikliklərin zaman və məkanla əlaqəsinə dair müxtəlif formalı təqdimat hazırlanması. |
| ***11-1.2.3. Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafına təbii-coğrafi və insan amillərinin təsirlərini dəyərləndirir.*** | - Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafına təbii-coğrafi və insan amillərinin təsirləri | - Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafına təsir edən təbii-coğrafi və insan amilləri ilə bağlı müxtəlif formalı təqdimatların hazırlanması. |
| ***11-1.2.4. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.*** | - Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyi | - Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyi ilə bağlı müzakirə və ya debat təşkil edilməsi. |
| **Məzmun xətti 2: DÖVLƏT** | | |
| **Standart: 11-2.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| ***11-2.1.1. Azərbaycanda mövcud olan dövlətlərin*** *(Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR, Azərbaycan Respublikası),* ***dövlətçilik ənənələrinin xüsusiyyətlərini, xalqımızın ərazi bütövlüyü və müstəqillik uğrunda apardığı mübarizənin*** | - Azərbaycan ərazisində *(Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR, Azərbaycan Respublikası)* dövlətçiliyin bərpası və onların müstəqil fəaliyyətinə şərait yaradan səbəblər, siyasi hadisələr, o cümlədən demokratik azadlıqlar uğrunda mübarizələr və sosial- | - Dövlətlərin qurulmasına şərait yaradan amillərin müzakirə edilməsi.<br>- Sosial-iqtisadi tədbirlərinin insanların həyat şəraitinə və dövlətin inkişafına təsirlərinin müzakirə edilməsi.<br>- Mənbələr əsasında dövlətlərin fəaliyyəti haqqında müxtəlif |

| | | |
|---|---|---|
| ***səbəb-nəticə əlaqəsini təhlil edir.*** | iqtisadi münasibətlər.<br>- Proseslərin əhalinin həyat şəraitinə, qonşu dövlətlərlə münasibətlərinə, beynəlxalq vəziyyətinə təsiri.<br>- Müstəqilliyini əldə etmiş dövlətlərin beynəlxalq subyekt kimi tanıdılması. | təqdimatlar hazırlanması.<br>- Mənbələrdən istifadə edərək Azərbaycanda mövcud olan dövlətlərə aid tarixi faktların müzakirə edilməsi.<br>- Azərbaycanda mövcud olmuş dövlətlərin dövrün müxtəlif xüsusiyyətlərinin müqayisə edilməsi.<br>- Dövlətlərin daxili və xarici siyasəti ilə bağlı cədvəl, sxem və diaqramlar hazırlanması.<br>- Dövlətlərin ərazi dəyişiklərinin xəritələrdən istifadə etməklə müəyyən edilməsi, onların səbəb və nəticələrinin təhlil edilməsi.<br>- Müstəqillik və müstəmləkə dövrlərinin Azərbaycanın tarixi inkişafına təsirinin müzakirə edilməsi.<br>- Milli dövlətçiliyin bərpa edilməsinə şərait yaradan amillərin müzakirə edilməsi.<br>- Azərbaycanın təbii resurslarının dünyanın iqtisadi və siyasi mövqeyinə təsirinin araşdırılması. |
| ***11-2.1.2. Azərbaycanın geosiyasi mövqeyini və beynəlxalq münasibətlərdə əhəmiyyətini dəyərləndirir.*** | - Azərbaycanın *(Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR, Azərbaycan Respublikası)* geosiyasi mövqeyi və beynəlxalq münasibətlərdə əhəmiyyəti. | - Azərbaycanın siyasi inkişafına təsir edən geosiyasi və beynəlxalq münasibətlərin təsirinin müzakirə edilməsi.<br>- Azərbaycanın geosiyasi mövqeyi ilə bağlı müzakirə və debat təşkil edilməsi. |
| **Məzmun xətti 3: TARİXİ ŞƏXSİYYƏT** | | |
| **Standart: 11-3.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı bilik və bacarıqları nümayiş etdirir.** | | |
| ***11-3.1.1. Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin*** *(Məhəmməd Əmin Rəsulzadə, Əli Mərdan bəy Topçubaşov, Fətəli xan* | - Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin (*Məhəmməd Əmin Rəsulzadə, Əli Mərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib* | - Müxtəlif informasiya mənbələrindən məlumat taplayaraq Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin hadisə, təzahür və proseslərə |

| | | |
|---|---|---|
| *Xoyski, Nəsib bəy Yusifbəyli, Xosrov bəy Sultanov, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Mir Cəfər Bağırov, Seyid Cəfər Pişəvəri, İmam Mustafayev, Heydər Əliyev, Əbülfəz Elçibəy, İlham Əliyev və s.)* ***hadisə, təzahür və proseslərə təsirini dəyərləndirir.*** | *bəy Yusifbəyli, Xosrov bəy Sultanov, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Mir Cəfər Bağırov, Seyid Cəfər Pişəvəri, İmam Mustafayev, Heydər Əliyev, Əbülfəz Elçibəy, İlham Əliyev və s.)* hadisə, təzahür və proseslərə təsiri. | təsirinə aid müxtəlif formalı təqdimat hazırlanması.<br>- Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin hadisə, təzahür və proseslərə təsirləri ilə bağlı esse yazılması.<br>- Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin fəaliyyətinin müqayisəli təhlil edilməsi. |
| ***11-3.1.2. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dövr baxımından dəyərləndirir.*** | Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti. | - Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin fəaliyyətinin öz dövrünə və sonrakı dövrlərə təsirinin müzakirə edilməsi.<br>- Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərin siyasi və sosial-iqtisadi fəaliyyəti ilə bağlı səbəb-nəticə əlaqəsinə aid cədvəllər hazırlanması.<br>- Müasir dövrdə dövlət idarəetmə sahəsində baş verən dəyişikliklərdə mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı müxtəlif formalı təqdimat hazırlanması.<br>- Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətinin dövr baxımından şifahi və ya yazılı şəkildə dəyərləndirilməsi. |
| **Məzmun xətti 4: MƏDƏNİYYƏT** | | |
| **Standart: 11-4.1. Cəmiyyətin inkişafında mədəniyyətin rolu ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| ***11-4.1.1. Sivilizasiyalararası və mədəniyyətlərarası əlaqələrdə Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.*** | - Müasir dövrdə sivilizasiyalararası və mədəniyyətlərarası əlaqələrdə Azərbaycan mədəniyyətinin rolu. | - Azərbaycanın müstəmləkə və müstəqillik dövründə mədəniyyətin inkişafının müqayisə edilməsi.<br>- Azərbaycan mədəniyyətinin |

| | | |
|---|---|---|
| | - Müasir dövrdə Azərbaycan mədəniyyətinə təsir edən mühüm siyasi və sosial-iqtisadi amillər.<br>- Müasir dövrdə Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində (elm, təhsil, ədəbiyyat, memarlıq və incəsənət) yeniliklər.<br>- Elmi-texniki nailiyyətlərin və yeni rəqəmsal bacarıqların Azərbaycan mədəniyyətinə təsiri.<br>- Azərbaycan mədəniyyətinin müasir dövrdə dünya mədəniyyətinə töhfələri. | inkişafına təsir edən sosial-iqtisadi, siyasi amilləri əks etdirən diaqramlar, cədvəllər, qrafiklər, sxemlər və s. tərtib edilməsi.<br>- Azərbaycan mədəniyyəti ilə bağlı mövzuların STEAM ilə inteqrasiya edilməsi.<br>- Azərbaycan mədəniyyətinin müasir dövrdə dünya mədəniyyəti ilə qarşılıqlı əlaqələri ilə bağlı mənbələr əsasında tədqiqat aparılması.<br>- İşğaldan azad edilmiş Azərbaycan ərazilərinə ekskursiyaların təşkili və oralardakı mədəni irsin öyrənilməsi.<br>- Müasir dövrdə Azərbaycanda baş verən elmi-texniki yeniliklərin müəyyən edilməsi və təsnifatlaşdırılması.<br>- Müxtəlif ideologiyaların və siyasi proseslərin müasir dövrdə Azərbaycan mədəniyyətinə təsirləri ilə bağlı debat və diskussiyaların təşkil edilməsi. |
| ***11-4.1.2. Milli-mənəvi dəyərləri təhlil edir.*** | - Müasir dövrdə milli-mənəvi dəyərlərin cəmiyyətin həyatında əhəmiyyəti və rolu.<br>- Milli-mənəvi və ümumbəşəri dəyərlərin inteqrasiyasının Azərbaycan mədəniyyətinə təsirləri. | - Milli-mənəvi dəyərlərin və Azərbaycanın müxtəlif sahələrdəki mədəni irsinin qorunması və təbliğ edilməsi ilə bağlı müzakirə təşkil edilməsi.<br>- Milli-mənəvi dəyərlərin və Azərbaycanın müxtəlif sahələrdəki mədəni irsinin təbliğ edilməsi ilə bağlı ekskursiyaların təşkil edilməsi. |

## Azərbaycan Tarixi Fənninin Xarakterinə Uyğun Təlim Strategiyaları

Təlim strategiyası qarşıya qoyulan məqsədə çatmaq üçün müxtəlif formalı öyrətmə metod və üsullarından istifadəsinin məcmusudur.

Təlim strategiyaları özündə təhsilin bütün komponentlərini ehtiva edir. Bununla bərabər bu komponentlərin hər biri dövlətin mədəni, siyasi və ictimai reallığı ilə bağlıdır.

İlk növbədə təhsilə özündə dili, milli mentaliteti , bacarıqları, adət-ənənələri ehtiva edən dəyər kimi baxılır. Bu dəyərlərin formalaşmasında şəxsiyyətin yönləndirilməsi və mədəniyyətlilik, kollektivçilik, sistemlilik, bütövlük əsas aparıcı prinsiplər kimi çıxış edir.

Təhsil insanı sosiallaşma prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnmənin davamlı bir fəaliyyəti kimi əhatə etdiyindən ona həm də proses kimi yanaşılır. Təhsil bütövlükdə müəllim və şagird fəaliyyətinin yekunu olduğundan həm də ona nəticə kimi baxılır.

Bütün dünyada olduğu kimi Azərbaycanda da yeni inkişafyönümlü dəyişikliklər baş verir. Yeniləşən və daim inkişaf edən bəşəriyyətə ayaq uydurmaq üçün bir sıra gözləntilərə hazır olmalıyıq. Müasir inkişaf tendensiyalarını nəzərə almaqla öz təhsilimizi yeniləşən dünyaya görə hazırlamalı və yetişməkdə olan gənc nəsli bilik, bacarıq və müasir vərdişlərə yönəltməliyik. Bütün bunlara nail olmaq üçün əvvəlcə dünyanın müasir inkişaf tendensiyalarına nəzər salmaq lazımdır:

- *elmin, texnikanın və informasiya-kommunikasiya texnologiyalarının (İKT) sıçrayışlı inkişafı, xüsusən də süni intellekt sahəsində əldə olunan nailiyyətlərin həyatımıza daxil olması, yaşadığımız mühitin sürətlə dəyişməsinə səbəb olur ki, bu da həm ölkəmizdə, həm də dünyada ictimai-siyasi gərginliyi artırır;*
- *virtual ünsiyyət canlı ünsiyyəti getdikcə daha çox əvəz edir;*
- *daha geniş dünyagörüşünə və fərqli bacarıqlara malik yeni nəsil yetişir;*
- *cəmiyyətdə yeni ictimai münasibətlərin – bazar iqtisadiyyatının mövqeyi möhkəmlənir;*
- *bu gün informasiya axınının olduqca sürətlə artması qazanılan biliklərin qısa zamanda köhnəlməsinə səbəb olur ki, bu insanların ondan yetərincə faydalanmasına imkan vermir;*
- *Qarşıya qoyulan məqsədləri həyata keçirmək üçün adətən tələb çox, vaxt izə az olur. Bu bır sıra çətinliklər yaradır;*
- *süni intellektin, robotlaşdırmanın inkişafı yaradıcı düşüncəyə getdikcə daha çox təlabat yaradır;*
- *qloballaşma nəticəsində müxtəlif siyasi sistemlərin və mədəniyyətlərin həm toqquşması, həm də qovuşması baş verir. Bu zaman xalqların əsrlərlə formalaşmış bir sıra milli-mənəvi dəyərləri sıradan çıxmağa məhkum olur;*
- *müasir dünyada şəxsiyyətin azadlığı ön plana çəkilir, insanlar arasında təbəqələşmə və yadlaşma dərinləşir;*

- *artmaqda olan ekoloji fəlakətlər, epidemiya, narkomaniya, terrorizm və vandalizm halları insanlarda təbiətə və mədəniyyətə qayğıkeş münasibətin formalaşdırılmasını, onlar arasında sağlam həyat tərzinin təbliğini zəruri edir;*
- *dünya ölkələrinin təhsil sistemləri arasında inteqrasiya güclənir;*
- *həm distant, həm də özünütəhsilə imkan verən rəngarəng və keyfiyyətli təlim resurslarının hazırlanmasını zəruri edir.*

**Bütün bu dəyişikliklər müasir təhsilin qarşısında aşağıdakı xüsusiyyətlərə malik şəxsiyyətin yetişdirilməsi tələbini qoyur:**

- *hadisələrə çevik reaksiya verən, yeni şəraitə uyğunlaşmağı bacaran, qabiliyyətlərini reallaşdıra bilən, özünü davamlı inkişaf etdirən və təkmilləşdirən;*
- *yeni bilikləri müstəqil əldə etməyə can atan və bunu bacaran, əməksevər, nəhəng informasiya kütləsi içərisindən faydalı olanı seçə, anlaya, düzgün ifadə və tətbiq edə bilən;*
- *vaxtdan səmərəli istifadə etməyi, tədqiqat aparmağı və təqdimatlar etməyi bacaran;*
- *sosial məsuliyyətli, fəal, tolerant, humanist, insan hüquqlarına hörmət edən, milli, bəşəri və demokratik dəyərlərə sadiq olan, ünsiyyət qurmağı, ictimai-siyasi hadisə və proseslərə konstruktiv tənqidi yanaşmağı, düşüncələrini fakt və arqumentlərlə əsaslandıraraq ifadə etməyi bacaran.*

Təhsilin inkişafında mühüm nailiyyətlərə malik olmuş ölkələrin təcrübəsi göstərir ki, müasir texnologiyalara əsaslanan, yaradıcı, fərdi xüsusiyyətləri nəzərə alan müasir, fəal – interaktiv təlim metodları daha yüksək nəticələr verir. Bu səbəbdən də təhsil siyasətində mütərəqqi tədris metodlarının davamlı olaraq yenilənməsi daim diqqət mərkəzində saxlanır. Dünyada gedən ictimai-siyasi proseslərə biganə qalmayan, ümumi dünyagörüşünə və faydalı sosial təcrübəyə malik olan şəxsiyyətin formalaşmasında tarix fənninin, o cümlədən Azərbaycan tarixinin əhəmiyyəti danılmazdır. Bu baxımdan ümumtəhsil siniflərində “Azərbaycan tarixi” fənninin tədrisinə müasir yanaşmalar təlim prosesinin təşkili və tətbiqi aşağıdakı prinsiplərə riayət olunmasını tələb edir:

**Şəxsiyyətyönümlü təlim prinsipi.** Bu prinsip şagirdin fəallaşmasını, onun bir şəxsiyyət kimi təlim prosesinin mərkəzi obyektinə çevrilməsini nəzərdə tutur. Bu zaman təlim şagirdin maraq və tələbatlarına, onun bilik səviyyəsinə, bacarıq və qabiliyyətlərinə yönəlir. Müəllim şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq, ona bir şəxsiyyət kimi hörmətlə yanaşır.

**Fəal idrak prinsipi.** Bu prinsip tədris prosesi nəticəsində şagirddə idrak fəallığı və yeni biliklərə yiyələnmək həvəsi yaradır. İdrak fəallığı ilk növbədə düşüncənin aktivləşdirilməsinə əsaslandığından, buna nail olmaq üçün problemli situasiyalar yaradılmalı və şagird bu problemin həllinə cəlb olunmalıdır.

**İnkişafetdirici təlim prinsipi.** Bu təlim prinsipi şagirdlərdə məntiqi düşüncə və yaradıcı təfəkkür formalaşdırmağa xidmət edir. Müasir pedaqoji yanaşmanın tələblərinə görə təlim inkişafı qabaqlamalı, şagirdin inkişaf dairəsinə yönəlməlidir. Şagird burada öz potensial imkanlarını səfərbər edə bilməli və qazandığı imkanları reallaşdırmağı bacarmalıdır. Təhsilverənlər isə məqsədyönlü suallar verməklə onları bu problemin həllinə yönəltməlidirlər.

**Qabaqlayıcı təlim prinsipi.** Müasir dövrdə baş verən sürətli dəyişikliklər təhsilin qarşısında şagirdlərin həyata hazırlanması məsələsini daha kəskin qoyur. Bu səbəbdən müasir təhsil cəmiyyətin inkişaf meyillərini nəzərə alaraq, şagirdə baza biliklər vermək, bacarıq və vərdişlər aşılamaqla onları yalnız müəyyən səviyyələr üzrə təhsilə hazırlamaqla kifayətlənməməlidir. O, eyni zamanda şagirdə zəruri informasiyanı müstəqil əldə etmək, onu yaradıcı şəkildə dəyişmək, dəyərləndirmək, düzgün təhlil və tətbiq etmək, proqnozlar vermək, proseslərin alternativ inkişaf istiqamətləri barədə mülahizələr yürütmək bacarıqları formalaşdırmalıdır.

**Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi.** Təlim-tərbiyə sisteminin çevikliyi real şəraitə uyğunlaşmaq qabiliyyətini və biliklərin yaradıcı tətbiqini nəzərdə tutur. Bu baxımdan ümumtəhsil sahəsində ictimai mühitin və şagirdlərin dəyişən tələbləri, onların yaş xüsusiyyətləri nəzərə alınmalı, tədris planları və proqramlarının məzmunu, təlim-tərbiyə prosesinin təşkili, pedaqoji texnologiyaların seçilməsi sistemli şəkildə yenilənməlidir.

**Əməkdaşlıq prinsipi.** Bu prinsip yalnız öyrədənlə öyrənənin deyil, bütün təhsil iştirakçılarının da təlim-tərbiyə prosesində tərəf müqabili kimi iştirakını ehtiva edir. Onlar arasında əməkdaşlıq isə təlim prosesinin təşkilinə əhəmiyyətli təsir göstərir. Müəyyən tələblər çərçivəsində şagird müəllimlə bərabərhüquqlu şəxs kimi çıxış edirsə bu onun özünə inamını artırır, həm də fikrini sərbəst çatdırmasına şərait yaradır. Əməkdaşlıq prinsipi müəllimdən şagirdin fəaliyyətini dəyərləndirməyi  və daha çox dəstəkləyici mühitin yaradılması tələb edir. Bu amillərin nəzərə alındığı təlim mühiti şagirdi fəal və öyrənməyə həvəsli etməklə yanaşı, həm də tərəflərin qarşılıqlı məsuliyyətini artırır.

**Kooperativ təlim prinsipi.** Bu prinsip təlim zamanı qarşıya çıxan problemlərin kollegial müzakirəsini, öyrənənlərin qarşılıqlı asılılığını - əməkdaşlığını, fərdi məsuliyyətini, çətinliklərdən çıxış yolunun birgə axtarışını ehtiva edir. Kooperativ təlimin gerçəkləşməsi üçün ilk növbədə şagirdlər qrupdaxili davranış qaydaları ilə tanış edilməsi, onlara müvafiq tapşırığın verilməsi və qrupun hər bir üzvünün öz fikirlərini və təcrübəsini digərləri ilə bölüşməsinə imkan verən demokratik müzakirə mühitinin yaradılması lazımdır. Plüralizmə və əməkdaşlığa əsaslanan bu təlim üsulu təhsil alanları fəallaşdırmaqla yanaşı, həm də tədrisin məzmununun zənginləşməsinə imkan yaradır, düzgün nəticələrin əldə olunması prosesinə müsbət təsir göstərir.

## Fəndaxili Və Fənlərarası İnteqrasiya

Dünyanın təhsil məkanında daha geniş istifadə edilən təhsildə inteqrasiya anlayışı ilkin olaraq onun semantikasını düşünməyi tələb edir. Bu anlayış qloballaşmanın meydana çıxardığı mühüm tələblərdən biri olmaqla müasir təhsil prosesinin özünəməxsus keyfiyyət göstəricilərindən biri kimi diqqəti cəlb edir. Daha çox fəlsəfi yöndə başa düşülən inteqrasiya sözü həyatın bütün sahələrinə aid olmaqla sintetik xarakter daşıyır və bütövləşmə istiqamətində yeni yaranışın əsasında durur. Xüsusən cəmiyyət hadisəsi kimi inteqrasiya onun inkişaf istiqamətində dəyişikliklərini tənzimləməklə müasirliyi təmin edir. Bu anlayışın mahiyyətinə varmaq üçün, ilk növbədə, onun mənasını bilmək əhəmiyyət daşıyır. "İnteqrasiya latın dilində "integer" - "bütöv", "bütövləşmə" deməkdir, əslində sözün etimologiyası inteqrasiyanın siyasi proses kimi məzmun və missiyasını daha aydın ifadə edir. "İnteger" sözündən yaranan "integratio" sözü də latın dilində "bərpa", "tamamlanan" mənasını verir".

İnteqrasiya termini XX yüzilliyin sonundan daha fəal istifadə olunmağa başlasa da onun ifadə etdiyi mahiyyət və məzmun həyat yarandığı gündən mövcud olmuş, onun varlığını təşkil etmişdir. Zaman-zaman diferensial yanaşmalar hissələrə bölünməni, ayrılmaları tənzimlədiyi kimi, inteqrasiya prosesləri də bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi meydana çıxmışdır. Bəşəriyyətin tarixi boyu proqressiv xarakter daşıyan yeniliklər diferensial və həmçinin interaktiv yanaşmaların fonunda yaranmışdır. Bütün elm sahələrində, o cümlədən də pedaqogikada inteqrasiya önəmli yer tutmuşdur. Ona görə də pedaqogikada "inteqrasiya", "inteqrativlik", eləcə də "təhsildə inteqrasiya" və s. anlayışlardan daha çox istifadə olunmağa başlamışdır.

İnteqrasiya təhsilin bütün struktur elementlərinə aid olduğundan "inteqrativ təlim", "inteqrativ dərs", "inteqrativ fənn" və s. anlayışlar da işlədilir. Eyni zamanda inteqrativ təlimə xüsusi pedaqoji texnologiyalardan biri kimi yanaşılır.

Təhsildə inteqrativliyin konseptual yanaşma kimi nəzərə alınması onun şəxsiyyətyönümlü mahiyyət kəsb etməsindən irəli gəlir. Şəxsiyyətyönümlülük isə daha çox inteqrativ bilik və bacarıqlara söykənən dəyərlərin mənimsənilməsini tələb edir ki, buna da yalnız inteqrativ təhsil prosesində nail olmaq mümkündür. Çünki təlimdə inteqrasiyanın nəticəsi şagird təfəkkürünün inkişafında özünü göstərir. O, tədris-idrak fəaliyyətinin səmərəliliyində, sistemləşdirilməsində, eləcə də mədəni savadlılığın mənimsədilməsində təzahür edir.

Bütün bunlar isə koqnitiv (idraki) təhsilin atributlarındandır ki, ona yalnız inteqrativlik şəraitində nail olmaq mümkündür.

**İnteqrasiya müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaqla onları sistemləşdirməkdir**.

Azərbaycan tarixi üzrə təhsil proqramı (kurikulumu) **fəndaxili** və **fənlərarası** əlaqələrin geniş tətbiqini nəzərdə tutur. İnteqrativ kurrikulum fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlama, birbaşa şəxsi iştirak

daxildir. Belə kurikulum şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyəsində dəyərli əlaqələr yaratmaqda köməklik göstərir. Digər fənn təhsil proqramları (kurikulumları) kimi Azərbaycan tarixi fənni üzrə təhsil proqramı da (kurikulumuda) biliklərin fənlər vasitəsi ilə təşkil olunmuş konsepsiyasına əsaslanır. Bu yanaşmaya görə şagird məktəbdə tədris olunan fənlər vasitəsi ilə müxtəlif sahələr üzrə seçilmiş məzmunu öyrənməli və tətbiq etməyi bacarmalıdır. Azərbaycan tarixinin inteqrativ kurikulumu aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

- **təlimin fəal cəlbedici və əyləncəli olması;**
- **çoxlu hissələrə bölünməməsi;**
- **məzmununun sadə, əhatəli və anlaşıqlı olması;**
- **fənlərinin sayının çox olmaması (iki, üç və dörd fənn);**
- **eyni konsepsiyanın iki müxtəlif fəndə öyrənilməsi;**
- **təlimin müxtəlif mərhələlərinin əlaqələndirilməsi (şaquli inteqrasiya);**
- **konsepsiyaların əlaqələndirilməsi (üfüqi inteqrasiya);**
- **yüksək nailiyyət səviyyəsinin və intellektual bacarığın inkişafının situmullaşdırılması**.

Nəzərə almaq lazımdır ki, Azərbaycan tarixinin məzmunu yüksək dərəcədə inteqrativdir. Çünki hər növbəti tarixi mərhələnin hadisə və təzahürləri müəyyən dərəcədə əvvəlki hadisələrlə bağlıdır və ondan asılıdır. Buna görə də şaquli inteqrasiya prinsipi gözlənilmədən tarixi gedişi anlamaq mümkün deyildir. Həmin prinsipin gözlənilməsi Azərbaycan tarixi fənninin əsas xüsusiyyətlərindən biridir. Digər tərəfdən, Azərbaycan tarixi ölkəmiz ərazisində yaşamış və yaşayan insanların həyatının bütün sahələrini və təzahürlərini əhatə etdiyi üçün onun başqa fənlərlə, başqa bilik sahələri ilə yüksək bağlılığı vardır. Buna görə də Azərbaycan tarixi fənninin hər mərhələsində üfiqi inteqrasiya gözlənilməlidir. Bu şagirdlər tərəfindən fənnin məzmununun mənimsənilməsinin zəruri şərtlərindəın biridir.

### Azərbaycan tarixinin təlimində fənlərarası və fəndaxili əlaqələrdən istifadə

Azərbaycan tarixinin tədrisində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə **fənn daxilində** (şaquli) inteqrasiya, ikinci tipə isə **fənlərarası** (üfiqi) inteqrasiya daxildir. Fənn daxili inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

- ***fraqmentləşdirilmiş (hissələrə bölünmüş) inteqrasiya;***
- ***əlaqəli inteqrasiya;***
- ***sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) inteqrasiya.***

Təhsil proqramının (kurikulumun) ənənəvi planlaşdırma və təşkili modeli olan **fraqmentləşmiş intiqrasiya** digər fənlərdə olduğu kimi, Azərbaycan tarixində də müstəqil tədris sahəsidir. Ümumi orta və tam orta təhsil səviyyələrində Azərbaycan tarixi ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentlənmə olmasına baxmayaraq, Azərbaycan tarixi fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzularının, bacarıqların və konsepsiyaların sıra ilə

qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər. Buna, Erkən orta əsrlərdə Sasanilər imperiyasının tərkibində olduğu üçün  Albaniya və Atrpopatenada baş vermiş hadisə və təzahürlərdə oxşarlıqların çox olmasını misal göstərmək olar.

Belə inteqrasiya şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı, hadisə və təzahürlər arasında oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verir. Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər. Məsələn, VII sinifdə Azərbaycan tarixindən "Ərəb xilafəti dövründə sosial-iqtisadi və siyasi vəziyyət" mövzusunda verilmiş məzmun, konsepsiya və bacarıqlar VIII-X siniflərdə iqtisadi məsələlərlə bağlı mövzuların tədrisi zamanı əlaqələndirilir. Əsas torpaq mülkiyyəti formaları kimi divan, iqta, mülk, vəqf və icma mülkiyyəti anlayışları bütün siniflərdə müvafiq mövzularda öyrənilir. Onlar haqqında əvvəllər əldə olunmuş bilik və bacarıqlara istinad etməklə şagirdlər daha ətraflı bilik və bacarıqlar əldə etmək, müqayisələr aparmaqla torpaq mülkiyyəti formalarında baş vermiş dəyişiklikləri izləmək və onların səbəb və nəticələrini müəyyənləşdirmək imkanı əldə edirlər.

**Əlaqəli inteqrasiya** modeli Azərbaycan tarixi fənni daxilində diqqəti mövzulara, bacarıqlara və konsepsiyalara yönəldir. Bu modeldə fənn daxilindəki mövzular, bacarıqlar və konsepsiyalar arasındakı əlaqələr aydın şəkildə qurulur. Məsələn, insanlar arasında bərabərsizliyin yaranmasının nəticəsi olaraq sosial qrup və təbəqələrin meydana çıxması ilk dövlət qurumlarının və dövlətlərin yaranması ilə, onlar da öz növbəsində xalqın fiziki və mənəvi varlığının qorunması üçün tariximizin bütün mərhələlərində müstəqil dövlətçiliyə malik olmaq, onu qorumaq və möhkəmləndirmək uğrunda mübarizə, son nəticədə isə dövlətçiliyin inkişafı, Şərqdə, bütün türk-islam dünyasında ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqələndirilir. Bu modelin üstünlüyü ondadır ki, hər bir sinifdə, hər bir təhsil mərhələsində dövlətçilik və onun qorunması konsepsiyası əlaqələndirilir, sistemləşdirilir və genişləndirilir. Bu da öz növbəsində fənn daxilində mövzuların və bacarıqların əvvəlkilərə istinad olunaraq yenidən nəzərdən keçirilməsinə və mənimsənilməsinə gətirib çıxarır.

**Sıxlaşdırılmış** (iç-içə yerləşdirilmiş) modelə çox vaxt "yuva" modeli də deyirlər. Azərbaycan tarixinin inteqrativ kurikulumunda bu modeli açıq şəkildə əlaqələndirmələrin və ya kombinasiyaların qurulması yolu ilə tətbiq etmək mümkündür. Bu modelin tətbiqi əsas diqqətin fənnin daxilində çoxşaxəli bacarıqlara (sosial bacarıq, düşünmə bacarığı və məqsədyönümlü bacarıq) yönəldilməsinə şərait yaradır. Məsələn, müəllim sasanilərin və ərəblərin Azərbaycan torpaqlarına köçürmə siyasətini şagirdlərin diqqətində saxlamaqla yanaşı, Rusiya hakim dairələrinin erməniləri Azərbaycanın şimal torpaqlarına köçürməsi siyasətinin doğurduğu demoqrafik siyasi və iqtisadi problemlərin onlar tərəfindən müəyyənləşdirilməsinə, o dövrə aid sənədlərin təhlili əsasında "Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin sosial-iqtisadi və siyasi nəticələri" mövzusunda esse yazılmasına nail ola bilər. Bu modelin tətbiqi eyni vaxtda müxtəlif sahələrə diqqətin yönəldilməsinə, əhatəli və məqsədyönümlü bilik əldə olunmasına şərait yaradır.

**İnteqrasiyanın ikinci tipi fənnlər arasında tətbiq olunur.** Bu zaman Azərbaycan tarixinin ümumi orta və tam orta təhsil pillələrində Ana dili, Ədəbiyyat, Riyaziyyat, Ümumi tarix, Coğrafiya, Kimya, Biologiya, Həyat bilgisi, STEAM, Musiqi və Təsviri incəsənət fənləri

ilə inteqrasiyası mümkündür. Azərbaycan tarixinin inteqrativ kurikulumunda fənlər arasında inteqrasiyasının aşağıdakı modellərini tətbiq etmək olar:

- ***ardıcıl (sıralanmış model);***
- ***ümumi (ortaq model);***
- ***inteqrasiya olunmuş model.***

Azərbaycan tarixinin inteqrativ kurikulumunda Ümumi tarix ilə inteqrasiyası daha çox **ardıcıl** (sıralanmış) modelin tətbiqi nəticəsində mümkündür. Bu fənlərdə çoxlu oxşar bölmələr və mövzular vardır ki, onlar ayrı-ayrılıqda tədris olunur. Lakin onları elə planlaşdırmaq olar ki, (bunun üstün cəhəti həmin fənlərin eyni müəllim tərəfindən tədris olunmasıdır) əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar eyni çərçivədə yaranıb və eyni vaxtda öyrənilsin. Bu cür inteqrasiyasının həyata keçirilməsi üçün kurikuluma dair sənədlərdə məzmun hökmən balanslaşdırılmalıdır. Azərbaycan tarixi və Ümumi tarix fənləri üzrə oxşar mövzulara bir neçə nümunə göstərmək olar: "İbtidai dövr", "Azərbaycan torpaqları Midiya və Əhəməni imperiyalarının tərkibində", "Atropatena və Albaniyanın Roma işğallarına qarşı mübarizəsi", "Azərbaycan Ərəb xilafətinin tərkibində", "Azərbaycan Böyük Səlcuq və Monqol imperiyalarının tərkibində", "Əmir Teymurun Azərbaycana yürüşləri", "Azərbaycan Əfşar və Qacar imperatorluqlarının tərkibində", "Azərbaycan Birinci və İkinci Dünya müharibələri illərində", "Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində (1991-2024-cı illər)" və s. Bu zaman fənlər ayrı olsa da, biliklər, konsepsiyalar və bacarıqlar əlaqəli şəkildə öyrənilir.

**Ümumi** model iki müxtəlif fənni vahid istiqamət üzrə bir araya gətirir. Bu modelin də Azərbaycan tarixindən inteqrativ kurikulumda tətbiqi imkanı genişdir. Ümumi model üzrə yanaşmaya əsasən inteqrasiya apara bilmək üçün fənn müəllimləri təlim prosesinə fənlərarası mövqedən yanaşaraq əsas konsepsiyaları, bacarıq və dəyərləri müəyyənləşdirirlər. Bu daha çox Azərbaycan tarixi və ədəbiyyat fənlərinin tədrisində mümkündür. Məslən, ədəbiyyat müəllimi "Kitabi-Dədə Qorqud" dastanının təhlilini bir konsepsiya kimi seçə bilər. Bu yolla ədəbiyyat və tarix müəllimləri komanda formasında fəaliyyət göstərərək şagirdlərə ümumi cəhətləri göstərə və ümumi əlamətləri müəyyənləşdirmə prosesinə kömək edə bilərlər. "İslam dininin Azərbaycanda yayılması" mövzusunun tədrisi zamanı da ümumi modeldən istifadə etmək mümkündür.

**İnteqrasiya olunmuş** model Azərbaycan tarixinin inteqrativ kurrikulumunda fənlərarası mövzuların üst-üstə düşən konsepsiyaları və onların məlum olan xüsusiyyətləri əsasında tətbiq olunur. Bu model ortaq (ümumi) modellə oxşardır. Lakin fərqli cəhət ondan ibarətdir ki, buraya ikidən artıq fənn daxil edilir. İnteqrasiya olunmuş model elm sahələri üzrə üst-üstə düşən bacarıqlar, konsepsiyalar və dəyərlər üzərində qurulur. Bu model fənn sahələrini sinergetik birləşdirir, yəni bir fənn üzrə biliklər digər fənndən ayrılmır, bölünmə yalnız fərqləndirilən məzmunun və ya anlayışın tədrisində baş verir. Bu model inteqrasiya fənlərinin məzmunundan əlaqəli fikirləri seçib ayırmaq nəticəsində yaranır. Azərbaycan tarixindən inteqrasiya olunmuş modelə uyğun gələn müəyyən dərs nümunələri vardır. Onlara "Azərbyacanın neft strategiyası" (Azərbaycan tarixi, kimya və biologiya müəllimləri tərəfindən aparılır), və "Xəzər dənizi və onun problemləri" (Azərbaycan tarixi, coğrafiya və biologiya müəllimləri tərəfindən aparılır) mövzularını misal göstərmək olar.

Azərbaycan tarixi mövzuların tədrisi prosesində digər fənnlərlə inteqrasiya vacib şərtdir. İnteqrasiya zamanı ziddiyyətli məqamlar olarsa, şagirdlər həmin sahədə araşdırma aparmağa yönəldilməlidir. Tədris prosesinin keyfiyyətinin yüksəlməsindən ötrü inteqrasiyaları reallaşdırmaq və bu məqsədlə də müəllimlər arasında əməkdaşlıq əlaqələrini təkmilləşdirmək vacibdir. Bu baxımdan ixtisasdan kənar fənlə bağlı məlumatların dəqiqləşdirilməsi və ya ətraflı məlumat alınması önəmlidir.

**Coğrafiya fənni ilə inteqrasiya.** Bu inteqrasiya dərsin müxtəlif mərhələlərində , ayrı-ayrı tapşırıqları tərtib edən zaman lazım olur. Belə ki tarixi zaman və məkan məzmun xəttini reallaşdırarkən dövlətlərin, şəhərlərin, abidələrin hazırda hansı ərazidə yerləşdiyi sualı yaranır. Bu zaman atlaslardan istifadə edərək suallara cavab tapmaq praktik iş шəraiti yaradır.
Məsələn: Azərbaycan tarixi dərslərində müxtəlif tarixi və coğrafi məkanlardan bəhs edilir. Ona görə də bu bölgələrin tarixi və coğrafiyası müxtəlif üsullardan istifadə edilərək, müasir dövrlə əlaqələndirilərək inteqrasiya edilə bilər. Həmçinin təbii-coğrafi amillərin tarixi hadisə və proseslərə, cəmiyyətin inkişafına təsirlərinin öyrənilməsi zamanı da coğrafiya ilə inteqrasiya zəruridir.

**Azərbaycan dili fənni ilə inteqrasiya.** Bu inteqrasiya daha çox söz assosiasiyası zamanı
tətbiq edilir. Şagirdlərə hər hansı bir söz və ya ifadəyə uyğun sinonimlər, yaxud antonimlər yazmaq tapşırığı verilir. Bu zaman şagirdlər ana dilində biliklərini nümayiş etdirəcək, hətta yeni sözlər, ifadələrlə tanış olacaqlar.

**Ədəbiyyat fənni ilə inteqrasiya.** Hər bir tarix müəllimi mədəniyyət məzmun xəttini reallaşdıran zaman ədəbiyyat fənni ilə inteqrasiya yarada bilər. Bu zaman dərs əhatəli və maraqlı alınar. Tarix mövzularının çoxunda ədəbiyyat fənni ilə inteqrasiya mümkündür.

**Musiqi fənni ilə inteqrasiya.** Şagirdlərin yaşı və musiqi dərslərində öyrəndikləri nəzərə alınaraq, tarix dərslərində bu inteqrasiyanı reallaşdırmaq mümkündür. Motivasiyalar zamanı musiqi parçasını dinləmək mövzuya keçid üçün maraqlı şərait yaradır. Belə ki vətənpərvər ruhda yazılmış mahnılar, marşlar, əsərlərdən parça (məsələn:"Koroğlu" operasından uvertura) səsləndirməklə motivasiya qurmaq dərsin məqsədinə nail olmaq üçün əlverişlidir.

**Riyaziyyat fənni ilə inteqrasiya.** Xronoloji tapşırıqlar riyaziyyat fənni ilə inteqra - siyanı reallaşdırır. Eyni zamanda memarlıq abidələrinin şəkillər və illüstrasiyalar əsasında təhlili zamanı şagirdlər həndəsi ifadələrdən istifadə edirlər. Məsələn: Qız qalasının əsas hissəsi silindir formasındadır.

**Rus, ingilis və ya digər xarici dillərlə inteqrasiya.** Bu inteqrasiyanın reallaşması terminlərin izahı zamanı baş verir.

**İnteqrasiyalar zamanı formalaşan bacarıq və fəallıq növləri:**

- *məntiqi təfəkkürün tətbiq edilməsi;*
- *gördüklərini bənzətmək;*
- *digər fənlərdən öyrəndiklərini tarix dərslərində tətbiq etmək;*
- *fənlərin yardımı ilə tədqiqat aparmaq;*
- *milli-mənəvi dəyərləri xatırlamaq;*
- *müasir dövrlə əlaqə yaratmaq.*

# Azərbaycan Tarixi Fənnində Şagird Nailiyyətlərinin Qiymətləndirilmə Vasitələri Və Meyarları

Heç bir insan digəri ilə tam eyni deyil. Kurikulumun ölçmə və qiymətləndirmə prosesinin "hər kəs üçün uyğun", "hər kəs üçün etibarlı və standart" olması insan təbiətinə ziddir. Bu səbəbdən ölçmə və qiymətləndirmə prosesində maksimum müxtəliflik və çevikliklə hərəkət etmək vacibdir. Kurikulum bu baxımdan bələdçidir. Kurikulumun bütün ölçmə və qiymətləndirmə elementlərini tam əhatə etməsini gözləmək real deyil. Təhsildə müxtəlifliyin olması, fərdi təhsil səviyyəsi, fənnin məzmunu, sosial mühit, məktəb imkanları və s. bu prosesə təsir göstərir. Daxili və xarici dinamikadan ciddi şəkildə təsirləndiyi üçün ölçmə və qiymətləndirmə təcrübələrinin effektivliyinin təmin edilməsində prioritet kurikulumdan deyil, müəllimlərdən və təhsil praktikantlarından gözlənilir. Bu məqamda müəllimlərdən əsas gözləntilər orijinallıq və yaradıcılıqdır.

Bu nöqteyi-nəzərdən kurikulumda ölçmə və qiymətləndirmə təcrübələrini istiqamətləndirən prinsipləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Ölçmə və qiymətləndirmə tədqiqatları kurikulumun bütün komponentləri ilə maksimum uyğunlaşmalı, nailiyyətlərin və izahların həddi əsas götürülməlidir.
2. Kurikulum ölçmə prosesində istifadə oluna bilən vasitələr və metodlara ciddi məhdudiyyətlər qoymur, yalnız onlara rəhbərlik edir. Bununla belə, tələb olunan texniki və akademik standartlara üstünlük verilən ölçmə və qiymətləndirmə aləti və metodunda riayət edilməlidir.
3. Ölçmə və qiymətləndirmə təcrübələri təhsilin tərkib hissəsi olub bütün təhsil prosesi boyunca həyata keçirilir. Ölçmə nəticələri izlənilən proseslərlə bütövlükdə idarə olunur.
4. Fərdi bacarıq fərqlərinə görə bütün şagirdləri əhatə edən universal, vahid ölçmə və qiymətləndirmə metodundan danışmaq düzgün deyil. Şagirdin akademik inkişafını bir metod və ya texnika ilə ölçmək və ya qiymətləndirmək məqsədəuyğun olmaz.
5. Təhsil təkcə "bilmək (düşünmək)" üçün deyil, həm də "hiss (duyğu)" və "etmək (hərəkət)" üçün verilir; Buna görə də, yalnız idrak ölçüləri əsas sayıla bilməz.
6. Çox istiqamətli ölçmə və qiymətləndirmə vacibdir. Ölçmə və qiymətləndirmə təcrübələri müəllim və şagirdlərin fəal iştirakı ilə həyata keçirilir.
7. Şagirdlərin maraqları, rəftarları, dəyərləri və uğurları kimi ölçü və qiymətləndirməyə tabe olan xüsusiyyətləri zamanla dəyişə bilər. Bu səbəbdən, sözügedən xüsusiyyətləri prosesdəki dəyişiklikləri nəzərə alan ölçmə və qiymətləndirmələrdən istifadə etmək vacibdir.

## Şagird nailiyyətlərinin qiymətləndirilməsi

Azərbaycan Respublikasında təhsil sahəsində həyata keçirilən islahatların əsas məqsədi, cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir. Təhsilin keyfiyyətinə təsir edən mühüm amillərdən biri də qiymətləndirmədir. Etibarlı (şəffaf, dəqiq və obyektiv) qiymətləndirmə olmadan heç bir fəaliyyəti, o cümlədən təlim-tərbiyə prosesini düzgün həyata keçimək mümkün deyildir. Müasir pedaqoji praktikada qiymətləndirmə bir fəaliyyət növü kimi aşağıdakı formalarda həyata keçirilir:

**Dəyərləndirmə** – təlim zamanı aşkara çıxan qüsurlara düzəliş edilməsi yolu ilə keyfiyyətlərin yaxşılaşdırılmasına yönələn fəaliyyət;

**Qiymət yazılması** – şagirdlərin bilik, bacarıq, vərdiş və digər kompetensiyalarının tələb olunan standartlara uyğunluq səviyyəsinin bal və ya digər formada ifadəsidir. Başqa sözlə, **qiymətləndirmə** – şagirdlərin bilik, bacarıq, vərdiş və digər kompetensiyalarının tələb olunan standartlara uyğunluğunun ölçülməsi, düzəlişlərin edilməsi, balla və yaxud digər formada ifadə olunmasıdır. O, qiymətləndirmə standartlarına uyğun şəkildə gündəlik fəaliyyətin izlənməsi, təhlil edilməsi və nəticələrin elan olunması yolu ilə həyata keçirilir.

**Müasir dövrdə qiymətləndirmə fəaliyyətinin qarşısında duran əsas vəzifələr:**

1. Təlimin keyfiyyətinin ölçülməsi yolu ilə bütövlükdə təhsilin inkişafına nail olmaq;
2. İnformasiyadan ("bilik"dən) vasitə kimi istifadə edərək, təhsilalanların bacarıq və vərdişlərinin ölçülməsini həyata keçirmək;
3. Hər bir şagirdin təlim nəticələri haqqında etibarlı məlumat əldə etmək;
4. Qiymətləndirmənin nəticələri əsasında təlimin keyfiyyətini yaxşılaşdıra biləcək növbəti adddımları müəyyən etmək;
5. Şagirdlərə qabiliyyətlərinə uyğun peşə seçməkdə yardım göstərmək;
6. Şagirdin daha yüksək pillədə təhsil ala bilməsi üçün zəruri kompetensiyalara yiyələnməsini təmin etmək;
7. Təlim-tərbiyə prosesində baş verə biləcək neqativ halların qarşısını almaq;
8. Fənn kurikulumlarında və dərsliklərdə mövcud olan problemləri aşkara çıxarmaq;
9. Nailiyyətlərin qiymətləndirilməsi üzrə beynəlxalq proqramlarda ölkəmizin iştirakını təmin etmək.

**Qiymətləndirmənin əsas prinsipləri.**

**Məqsədəuyğunluq:** Bu prinsip ölçülməsi mümkün olan nəyin və hansı məqsədlə qiymətləndiriləcəyinin əvvəlcədən müəyyən edilməsini, buna müvafiq qiymətləndirmə vasitələrinin (*açıq, yaxud qapalı tipli test tapşırıqlarının, açıq və ya qapalı suallardan ibarət sorğu vərəqlərinin, situativ tapşırıqların və s.)* hazırlanmasını, seçilmiş qiymətləndirmə vasitələrinin gözlənilən keyfiyyətə müvafiqliyinin və etibarlılığının təmin olunmasını tələb edir;

**Şəffaflıq, dəqiqlik, obyektivlik və ədalətlilik:** Bu prinsiplər qiymətləndirmənin tədris proqramlarına və digər normativ aktlara uyğun, elmi baxımdan mübahisə doğurmayan məlumatlar əsasında, şagirdlər arasında heç bir diskriminasiyaya yol vermədən, qiymətləndirmə meyarlarını əvvəlcədən elan edərək aparılmasını tələb edir;

**İnkişafetdiricilik:** Bu prinsip şagirdlərin idrak qabiliyyətlərinin aşkara çıxarılması və onların tədqiqatçılıq bacarıqlarının ölçülməsi yolu ilə təhsilin şəxsiyyətyönlü, tələbyönlü və səmərəli olmasını təmin edir;

**İnklüzivlik:** Bu prinsip qiymətləndirmə prosesinin həyata keçirilməsi zamanı fiziki məhdudiyyətləri olan şagirdlərin imkanlarının nəzərə alınmasını ehtiva edir.

## Məktəbdaxili qiymətləndirmə və onun növləri

Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası:

**1. Ümumi müddəalar**

- Bu Qayda "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 29.0.29-cu maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının aparılması məsələlərini tənzimləyir. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmişdir.

**2. Diaqnostik qiymətləndirmə**

- Diaqnostik qiymətləndirmə dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır.
- Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.
- Diaqnostik qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər təhsilalanın fərdi qovluğunda saxlanılır.

**3. Formativ qiymətləndirmə**

- Formativ qiymətləndirmə təhsilalanın təhsil proqramında müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir.
- Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə üsullarından istifadə olunur.
- Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı “Məktəbli kitabçası”nda müvafiq yazılı qeydlər aparılır.

**4. Summativ qiymətləndirmə**

- Summativ qiymətləndirmə təhsil proqramında müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır.
- Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

• *Dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;*

• *Hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.*

- Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur.
- Kiçik summativ qiymətləndirmə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.
- Kiçik summativ qiymətləndirmə fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

- Böyük summativ qiymətləndirmə ümumi təhsil müəssisəsinin rəhbərliyi tərəfindən hər yarımilin sonunda IX və XI siniflər üzrə aparılır.
- Hər bir fənn üzrə böyük summativ qiymətləndirmə tam orta təhsil səviyyəsində 45-90 dəqiqə ərzində aparılır.
- Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.
- Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir:

- *1-ci səviyyə ən aşağı,*
- *4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir.*

Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır:

- *1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir.*
- *3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir.*

Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

- *1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;*
- *2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;*
- *3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;*
- *4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.*

**5. Qiymətləndirmənin əsas üsul və vasitələri:**

Qiymətləndirmənin növündən asılı olaraq, bu gün aşağıdakı müxtəlif üsul və vasitələrdən istifadə olunur:

| **Diaqnostik** | |
|---|---|
| **Üsullar** | **Vasitələr** |
| 1. Tapşırıqların verilməsi | - 1. Çalışmalar |
| 2. Müsahibə | - 2. Məlumatların qeydiyyat vərəqi |
| **Formativ və summativ** | |
| **Üsullar** | **Vasitələr** |
| 1. Şifahi, yazılı, yaxud audiovizulal təqdimatlar (layihələr, tədqiqatlar, esselər, maketlər, sxem, cədvəl, diaqramlar və s.) | - Meyarlar üzrə qiymətləndirmə şkalası, özünüqiymətləndirmə və qiymət vərəqələri |
| 2. Test | - Qapalı və açıq tipli test tapşırıqları, Eyler-Venn diaqramları, kontur xəritələr və s. |
| 3. Problem-situasiya | - Meyarlar üzrə qiymətləndirmə şkalası, |

| | |
|---|---|
| | özünüqiymətləndirmə və qiymət vərəqələri |
| 4. Oyunlar | - Oyunun qaydaları, müşahidə və qiymətləndirmə vərəqləri |

**6. Yarımillik və illik qiymətlərin hesablanması**

- Təhsilalanların kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır. Yarımillik balının 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu müvafiq olaraq müəyyənləşdirilir. Yarımillik balların miqdarı və onların uyğunlaşdırıldığı qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.
- Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = (ksq_1 + ksq_2 + \ldots + ksq_n) / n$$

***Y*** *- təhsilalanın yarımillik üzrə balını;*

***$ksq_1$+ $ksq_2$+…+ $ksq_n$*** *- hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarı;*

***n*** *– kiçik summativ qiymətləndirmələrin sayını bildirir.*

- Böyük summativ qiymətləndirmə aparılan fənlər üzrə yarımillik bal kiçik və böyük summativ qiymətləndirmələrdə toplanılan ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y_{1,2} = \frac{ksq_1 + ksq_2 + \ldots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ_{1,2} \cdot \frac{60}{100}$$

**BSQ** – hər yarımillik üzrə aparılan böyük summativ qiymətləndirmədə toplanmış balların miqdarı.

- Təhsilalanın illik balları onun yarımillik ballarının ədədi ortası kimi hesablanır və illik balın 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu müvafiq olaraq müəyyənləşdirilir. Qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.
- İllik qiymətləndirmənin nəticələrinə əsasən təhsilalanların sinifdən-sinfə keçirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

**7. İllik qiymətin çıxarılması.**

- Yarımillik ballara görə illik qiymət çıxarılır.
- Aşağıdakı nümunədə şagirdin yarımilliklərdə aldığı ballara görə illik balın müəyyənləşdirilməsi qaydası göstərilmişdir.

**Birinci Yarımil + İkinci Yarımil / 2 = İllik**

**Qiymətləndirmə standartlarının hazırlanması**

- Məzmun standartları və onların mənimsənilməsi üçün istifadə edilən strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədi ilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə edilir. Məzmun standartları inteqrativ təlim nəticələri olub, şagirdin müvafiq bilik, bacarıq və dəyərlərə nail olmaqla səviyyəcə dəyişməsini təmin

edir.

- Qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla, baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir. Qiymətləndirmə standartlarının təyin edilməsində imtahana əsaslanan metod vasitəsilə bütün maraqlı tərəflərin razılığı əsasında müvafiq siniflər üzrə milli səviyyədə yekun qiymətləndirmə (imtahan) keçirilir, nəticələr təhlil olunmaqla, standartlar təyin edilir:
  - *minimum - şagirdlərin 90-100 faizi tərəfindən nail olunan standartlar;*
  - *yüksək - şagirdlərin ən yaxşı halda 30 faizi tərəfindən nail olunan standartlar.*
- Qiymətləndirmə standartlarının təyin edilməsində kurikulumyönümlü metoda daha çox üstünlük verilir. Bu metoda görə:
  - *qiymətləndirmə standartları milli kurikulumda əks olunmuş nailiyyətlərə (nəticələrə) uyğun hazırlanır və faktiki olaraq şagirdlərin nəyi bacardıqlarına dair ölçmələrə deyil, mütəxəssis mühakimələrinə əsaslanır;*
  - *bütün məktəblərin, müəllimlərin təmsil olunduğu təşkilatların və digər maraqlı tərəflərin müzakirələri əsasında standartlara düzəlişlər edilir və arzu olunan nailiyyət səviyyələrinə dair ortaq fikir yaranır.*
- Qiymətləndirmə standartları 4 səviyyə (rubrik) üzrə ***qiymətləndirmə sxemləri (QS)*** şəklində hazırlanır:

  I səviyyə - aşağı

  II səviyyə - orta

  III səviyyə - yüksək

  IV səviyyə - ən yüksək

QŞ şkalası B.Blum taksonomiyasının səviyyələrinə uyğun olaraq şagirdin idrak fəaliyyəti aşağıdan yuxarıya doğru olmaqla I səviyyə ən aşağı, IV səviyyə isə ən yüksək idrak fəaliyyəti səviyyəni əks etdirir. Adətən, I səviyyə və II səviyyə orta idrak fəaliyyəti nümayiş etdirən şagirdlər, III səviyyə və xüsusi ilə IV səviyyə isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Qeyd edək ki, QS-lər qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl həyata keçirilməsinə imkan verir, tədrisin səmərəliliyi ilə bağlı müəllimləri faydalı məlumatlarla təmin edir və tələb edir ki, hər bir müəllim müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirsin. QS-lər şagirdin işini qiymətləndirmək üçün müəllimin sərf etdiyi vaxtı azaldır, keyfiyyət səviyyələri vasitəsilə müxtəlif qabiliyyətə malik şagirdlərin təhsil aldığı sinifləri nəzərə almağa şərait yaradır.

QS-lər fəaliyyətin qiymətləndirilməsi zamanı istifadə olunan meyarlarla bağlı şagirdlərin məlumatlandırılmasını, onların işinin necə qiymətləndiriləcəyini və onlardan nələrin tələb olunduğunu aydın şəkildə göstərməklə konkret məqsəd və tələbləri (meyarlar) müəyyən edir. QS-lər şagird işlərinin keyfiyyətini daha yaxşı qiymətləndirməklə təlim prosesində irəliləyişlərin qiymətləndirilməsi üçün çərçivə təyin edir, işlərin keyfiyyəti ilə bağlı əks tərəfə məlumat verməsini təmin edir.

➢ Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:

- *qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması prosesində testlərin məqsədəuyğunluğu*
- *(məhz "nəzərdə tutulanı" qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);*
- *səmərəlilik üçün hər sinif üzrə nisbətən az (<10) və nisbətən çox (>10) məzmun standartına malik olan iki fənn qrupunun müəyyənləşdirilməsi;*
- *yekun (summativ) testlərdə bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin*
- *edilməsi:*

*1-ci səviyyə üzrə suallar- 20%*

*2-ci səviyyə üzrə suallar - 30%*

*3-cü səviyyə üzrə suallar - 30%*

*4-cü səviyyə üzrə suallar- 20%*

| | | |
|---|---|---|
| 10 sual | 4-cü səviyyə | 2 sual |
| | 3-cü səviyyə | 3 sual |
| | 2-ci səviyyə | 3 sual |
| | 1-ci səviyyə | 2 sual |

| | | |
|---|---|---|
| 20 sual | 4-cü səviyyə | 4 sual |
| | 3-cü səviyyə | 6 sual |
| | 2-ci səviyyə | 6 sual |
| | 1-ci səviyyə | 4 sual |

## Azərbaycan Tarixi Fənninə Dair Təlim Materiallarının Planlaşdırılması Üzrə Metodiki Tövsiyələr

Plan sözünün hərfi mənası bir tapşırığı yerinə yetirərkən əməl etmək üçün nəzərdə tutulmuş tədbirlər, əmrlər və prinsiplər toplusu deməkdir. Təhsildə perspektiv (illik) və gündəlik (cari) olmaqla 2 növ planlaşdırma müəyyənləşdirilmişdir. Perspektiv plan müəllimlərin tədris ili ərzində tədris etməli olduqları siniflərdə müəyyən bölmə və ya mövzuları kurikuluma uyğun olaraq hansı aylarda təqribən nə qədər müddətə tədris edəcəklərini göstərən iş planıdır.

Perspektiv plan hazırlamaq tədris prosesində vacibdir. Bundan əlavə, perspektiv plan zamanla yenilənməlidir və yeni yaranan təhsil ehtiyaclarına cavab verməlidir.

Təhsil və təlim planlı və proqramlaşdırılmış inkişaf işidir. Effektiv və səmərəli təhsilə yalnız planlaşdırmaya lazımi əhəmiyyət verməklə və müəllimlərin siniflərinə hazırlıqlı daxil olmalarını təmin etməklə nail olmaq olar.

Perspektiv planda əvvəlcədən müəyyən edilmiş təhsil məqsədlərinə nail olmaq üçün tədris fənni çərçivəsində fəaliyyətlərdən hansının seçiləcəyi, onların şagirdlər tərəfindən niyə və necə həyata keçiriləcəyi, hansı köməkçi və tamamlayıcı resurslardan və vasitələrdən istifadə ediləcəyi qeyd edilir.

Perspektiv plan şagird mərkəzli, müasir tədris yanaşmalarına əsaslanan tətbiq oluna bilən fəaliyyətlərə əsaslanır. Planlaşdırma müəllimin təhsildə nəyi, niyə və necə edəcəyini düşünməyə imkan verməklə onun səmərəliliyini artırır. Tədris proqramlarının planlaşdırılması şagirdlərin bilik və bacarıq səviyyələrini nəzərə almaqla onun nə vaxt və hansı müddət ərzində tədris olunacağını təşkil etməyə imkan verir.Bu, müəllimləri və şagirdləri qarışıqlıqdan xilas edir və nizamlı işləməyi təmin edir. Məqsədlərə çatmaq üçün ən uyğun təlim və tədris proseslərinin, alət və avadanlıqların seçilməsini, şagirdlərin təhsil fəaliyyətlərinə və dərslərə hazırlanmasını təmin edir. Şagirdlərin maraq, istək və qabiliyyətlərinə uyğun təhsil alması, təhsil və təlimin qiymətləndirilməsinin etibarlı olmasına şərait yaradır.

Perspektiv planlaşdırma müəllimin bir il müddətində proqrama uyğun olaraq tədris edəcəyi mövzuları hansı günlərdə, neçə saat, hansı resurslarla tədris edəcəyi, müvafiq məzmun standartlarını, inteqrasiya etdiyi fənləri göstərməklə hazırlanan bir planlaşdırmadır. Bu planlaşdırma dərs ili başlayanda müəllim tərəfindən hazırlanaraq, təsdiq olunmaq üçün məktəb rəhbərliyinə təqdim olunur.

| Sıra №-si | Mövzu | Məzmun standartları | İnteqrasiya | Resurslar | Saat | Tarix |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

Perspektiv planlaşdırma hazırlayan müəllim əvvəlcə dərs deyəcəyi siniflə, fənn üzrə kurikulumla, dərsliklə, məktəbin maddi-texniki bazası və yerləşdiyi ətraf mühitlə tanış olmalıdır. Planlaşdırma aparmaq üçün müəllimə lazım olan bacarıqlardan biri mövzuların tədrisi zamanı inteqrasiya imkanlarını müəyyən etməkdir. Tarix fənninin bir çox fənlərlə inteqrasiyası mümkündür. Tarix müəllimi planlaşdırma apararkən tədris etdiyi mövzunun digər fənlərdəki bu və ya digər mövzu ilə inteqrasiya imkanlarını müəyyən etməlidir.

Mövzuya uyğun resursların seçilməsi də perspektiv planlaşdırma aparmaq üçün müəllimə lazım olan bacarıqlardan biridir. Müxtəlif xəritələr, videoçarxlar, filmlər, illustrasiyalar, şəkillər və digər əyani vəsaitlər tarix fənninin tədrisində mühümdür.

Mühüm bacarıqlardan biri də mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaqdır. Fənnin tədrisinə ayrılmış vaxtı artırıb-azaltmamaq şərti ilə müəllim mövzuların çətinlik dərəcəsinə görə onlara verilən vaxtı özü müəyyənləşdirməyi bacarmalıdır.

Məzmun standartlarının təlim prosesinə gətirilməsində onun təhsil proqramında verilmiş ardıcıllığının bütün hallarda olduğu kimi saxlanılması mütləq deyil. Müəllim sinif üzrə fəaliyyətini planlaşdırarkən, bu nəticələrə yanaşmada müstəqildir. O, zəruri hallarda onları müxtəlif səviyyələrdə inteqrasiya etməkdə sərbəstdir.

Gündəlik plan isə Perspektiv planda nəzərdə tutulmuş hər hansı bir mövzunun tədrisi prosesinin planlaşdırılmasıdır. Bu plana fənn üzrə məzmun standartlarını reallaşdırmaq üçün məqsədlər, iş forması və üsulları, resurslar, inteqrasiya, tapşırıqlar, qiymətləndirmə kimi komponentlər daxildir.

Gündəlik plan hazırlayarkən səhv etməmək üçün müəllimlərin bir neçə məsələyə diqqət etmələri vacib hesab edilir. Müəllim şagirdlərdə fərqliliklərə diqqət yetirilməlidir. O, hər şagirdin dəyişik maraq, ehtiyac və qabiliyyətləri olduğunu nəzərdən qaçırmamalı, eyni davranış və ya öyrənmə vəziyyətini hər şagirddən eyni şəkildə istəməməli və planını ona görə hazırlamalıdır.

Gündəlik dərs planı hazırlayarkən diqqət yetirilməli ən önəmli məsələlərdən biri də tapşırıqların hazırlanmasıdır. Şagirdləri araşdırmaya və inkişafa sövq etdirən tapşırıqlar təqdim edilməli, lakin şagirdlərin potensial imkanlarını aşan tapşırıqlar verməməlidir. Şagirdlərə verilən hər cür araşdırma və tapşırığa mütləq nəzarət edilməlidir. Plan şagirdin səviyyəsindən nə yüksək, nə də aşağı olmamalıdır.

Təbii mühit, zəka, yaş, sosial-iqtisadi vəziyyət kimi öyrənməyə təsir edən faktorlar hər sinifdə hər şagird üçün fərqlidir. Şagirdlər üçün öyrənmədə fərqli olmayan tək şey zamandır. Müəllim zaman amilini çox yaxşı qiymətləndirəcək bir plan hazırlamalıdır, nəyi, necə və nə qədər müddətdə tədris edəcəyini çox yaxşı planlaşdırmalıdır.

Plan hazırlayarkən dərsliyə həddindən artıq bağlı qalmamaq və planı elastik formada tərtib etmək lazımdır. Plana daxil edilən qeydlər nə çox qısa, nə də çox uzun deyil, müəllimin şagirdlərə göstərişlər verə biləcəyi səviyyədə olmalıdır.

Gündəlik plan əhəmiyyətli mövzuların öyrədilməsini asanlaşdırır, zamanı yaxşı qiymətləndirməyə kömək edir, müəllimin fəaliyyətini göstərən sənəd xüsusiyyəti daşıyır və dərslərin bir-biri ilə əlaqələndirilməsini, dərslərdə davamlılığı və bütövlüyü təmin edir.

**Azərbaycan tarixi kurikulumundan funksional istifadə etmək üçün müəllimlərin diqqət etməli olduğu məqamlar aşağıda təqdim olunur:**

1. Tarix dərslərində faydalı və daimi öyrənməni təmin etmək üçün şagirdlərin bilməli olduğu əsas elementlərdən biri anlayışlardır. Tarix müəllimləri mövzular haqqında şagirdlərin bilik səviyyələrini müəyyən etdikdən sonra fənn daxilində əsas anlayışların öyrədilməsi ilə bağlı təcrübələri (konsepsiya xəritələri, termin və anlayışlar cədvəli, lüğətin hazırlanması və s.) daxil etməlidirlər.

2. Azərbaycan tarixi üzrə təhsil proqramında (kurikulumunda) mühüm tarixi şəxsiyyətlərin fəaliyyəti, dərslikdəki məlumatlar və təlim nəticələri əlaqələndirilərək öyrədilməlidir.

3. Müəllimlər tədris zamanı tarixi məkan əsaslı öyrənmə fəaliyyətlərini də əhatə etməlidirlər. Bu çərçivədə virtual muzey ziyarətləri müəllimlərin nəzarəti altında həyata keçirilməli, mühit və məktəb imkanları uyğun olduqda tarixi yerlər və muzey ekskursiyaları həyata keçirilməlidir. Müəllimlər ekskursiyaları əlaqəli təlim nəticələrinə uyğun olaraq planlaşdırmalı, həyata keçirməli və nəticə istiqamətində tədbirlər görməlidir.

4. Standartlarda, təlim nəticələrində və dərsliklərdə verilən xronoloji məsələlər-tarixlər şagirdlərin xronoloji təfəkkür bacarıqlarını formalaşdırmaq üçün nəzərdə tutulub. Tarixi hadisə və faktlar əzbərlədilməməlidir.

5. Müəllimlər öz şagirdlərinə tarix dərsi ilə bağlı bilik, bacarıq, dəyər və münasibət formalaşdırarkən yalnız dərsliklərə əsaslanmamalıdır. Standartların tələblərinə uyğun olan tədris materialları (təqdimatlar, fəaliyyətlər, iş vərəqləri, layihələr, mətn parçaları və birinci və ikinci əl tarixi mənbələrdən yazılı, əyani və audio formatda və s.) hazırlanmalıdır. Rəqəmsal resurslardan istifadə ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydalara əməl edilməlidir. Xüsusilə, internetdən yüklənmiş materialların istifadəsində plagiata yol verilməməli, etik qaydalara və müəllif hüquqlarının pozulmamasına riayət edilməlidir.